RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 242 (8265) CÜMƏ AXŞAMI, 31 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 190 ölkənin öncülləri sırasında

## Prezident İlham Əliyevin alternativsiz islahatları, innovativ dövlət idarəçiliyi Azərbaycanın reytinqini yüksəldir və ölkəmizi beynəlxalq iqtisadi təşkilatların tamhüquqlu üzvünə çevirir

Dövrün tələblərinə uyğun aparılan kompleks islahatlar Azərbaycana artıq həm siyasi-iqtisadi dividendlər qazandırır, həm də ölkəmizin beynəlxalq hesabatlarda mövqeyini daha da yaxşılaşdırır.

Prezident İlham Əliyevin 2015-ci ildən daha da dərinləşdirdiyi islahatların uğurlu nəticələrinin beynəlxalq reytinq agentliklərinin, Dünya Bankının və Dünya İqtisadi Forumunun hesabatlarında əksini tapması da bunun real təcəssümüdür.

Dünya Bankının "Doing Business 2020" hesabatında Azərbaycan top-20 ən islahatçı ölkə sırasında yer alıb. Hesabatda Azərbaycan 190 ölkə arasında 76,7 qiymətləndirmə balı ilə 34-cü sırada qərarlaşıb. Ölkəmiz 2018-ci ilin mayından 2019-cu ilin mayına qədər olan dövrdə həyata keçirilən kompleks islahatlara, xüsusən də 4 indikator- "Əmlakın qeydiyyatı", "Kreditin alınması", "Minoritar investorların hüquqlarının qorunması" və "Müqavilələrin icrasının təmin edilməsi" üzrə aparılan islahatlara görə bu yerə layiq görülüb.

Hesabatda qeyd olunur ki, Azərbaycan kadastrın əhatə dairəsini genişləndirməklə və kadastr planlarını rəqəmsallaşdırmaqla əmlakın qeydiyyata alınmasını daha asan və şəffaf edib. Ölkəmiz həm borcların, həm də öhdəliklərin ümumi təsvirinə, təhlükəsizlik maraqlarının məhkəmədənkənar icrasına icazə verib. Tərəflərin imzaladığı əlverişsiz sazişlər üzrə məsuliyyət direktorların üzərinə qoyulmaqla minoritar investorların hüquqlarının müdafiəsi gücləndirilib.

Azərbaycan şikayətçilərə ilkin şikayətləri elektron qaydada təqdim etməyə imkan verən elektron sistem tətbiqi və könüllü vasitəçilik haqqında birləşdirilmiş qanun qəbul etməklə müqavilələrin icrasını asanlaşdırıb.

Hesabata əsasən, Azərbaycan biznesə başlama üzrə 9-cu, tikinti üçün icazələrin alınması üzrə 59-cu, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə 80-ci, əmlakın qeydiyyatı üzrə 44-cü, kreditlərin alınması üzrə 1-ci, kiçik investorların hüquqlarının müdafiəsi üzrə 105-ci, vergilərin ödənilməsi üzrə 40-cı, sərhəddə ticarət üzrə 83-cü, müqavilələrin icrası üzrə 28-ci və müflisləşmənin həlli indikatoru üzrə 47-ci yerdədir.

Azərbaycanın "Doing Business 2020" hesabatında ən yüksək nəticə əldə etdiyi sahə kreditlərin əlçatanlığıdır. Ölkəmiz kreditlərin əlçatanlığı göstəricisi üzrə 190 dövlət arasında 1-cidir.

Ardı 4-cü səh.

# Hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir

## Prezident İlham Əliyev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Əziz qonaqlar, sizi salamlayıram. Çox şadam ki, Birlik ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclası Bakıda keçirilir. Bu tədbir özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizi daha sıx birləşdirir, ikitərəfli gündəliyə dair söhbət etmək üçün yaxşı imkan yaradır. Bildiyiniz kimi, bu yaxınlarda Aşqabadda dövlət başçılarının Zirvə Görüşü çox uğurlu keçdi. MDB üzvü olan digər ölkələr kimi, Azərbaycan da bu təşkilatda iştiraka böyük əhəmiyyət verir. Bir sıra məsələlərə dair bizim konstruktiv mövqeyimiz də MDB çərçivəsində qarşılıqlı fəaliyyətin daha da möhkəmlənməsinə töhfə verir. Əlbəttə, xüsusən müasir mərhələdə bizim regionda mövcud olan və yarana biləcək təhlükələr nəzərə alınmaqla hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir. Zənnimcə, buna görə MDB üzvü olan ölkələrin sabitliyi və davamlı inkişafı çox cəhətdən dövlətlərimizin təhlükəsizliyini təmin edən orqanların qarşılıqlı fəaliyyətindən asılıdır.

Dövlət başçılarının Aşqabad Zirvə Görüşü çərçivəsində müzakirə edilən mövzulardan biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə hazırlıq məsələsi idi. Biz Azərbaycanda da buna çox fəal hazırlaşırıq. Bu, bizim ümumi Qələbəmizdir, Azərbaycanda dövlət səviyyəsində qeyd edilən Qələbədir. 9 May ölkəmizdə dövlət bayramıdır. Bu bayram Heydər Əliyev Azərbaycana qayıdandan sonra bərpa edildi. Təəssüf ki, müstəqilliyin ilk illərində Xalq Cəbhəsinin xalqa zidd olan iqtidarı təqvimdəki bu qırmızı günü silməklə onu xalqımızın yaddaşından da silməyə cəhd göstərdi, veteranlara hörmətsizlik etdi. Əslində bu, Böyük Vətən müharibəsinin tarixini təhrif etmək cəhdləri idi. İndi bəzi ölkələrdə belə cəhdlər təəssüf ki, kifayət qədər kütləvi xarakter alır. Beləliklə, 9 May günü uzun illər boyu dövlət bayramı kimi qeyd edilir və veteranlara qayğı bizim gündəlik işimizin ayrılmaz tərkib hissəsidir. Veteranlar diqqət və qayğı ilə əhatə olunub, onların maddi vəziyyəti təmin edilir. Onlar bizim üçün, hamı üçün qəhrəmanlıq nümunəsidir.

Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. Bunu demək kifayətdir ki, ümumi Qələbəmiz üçün tələb olunan yanacağın çox böyük hissəsini - neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Bakı təmin edirdi. Bu potensial olmasaydı, faşist Almaniyasına qalib gəlmək çox çətin olardı. Təsadüfi deyil ki, faşist Almaniyası gözlərini Bakıya zilləmişdi, Bakını tutmaq planları vardı. Bu halda sovet ordusu zəruri yanacaqdan məhrum olardı. Tarixdən yaxşı bilirik ki, faşistlərin öz hücumlarını inkişaf etdirə bilməməsinin bir səbəbi məhz o idi ki, onlar yanacaq sarıdan korluq çəkirdilər. Bakı neftçiləri əsl fədakarlıq göstərir, gecə-gündüz işləyirdilər. Məhz həmin illərdə neft hasilatı rekord səviyyəyə - orta hasilat səviyyəsindən iki dəfə yüksək həddə çatmışdı. Böyük Vətən müharibəsində ümumi Qələbəyə Azərbaycan xalqının da sanballı töhfəsi olub. Xalqımızın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Sovet İttifaqı qəhrəmanlarından 170 nəfəri Azərbaycanın nümayəndələridir. Bu, xalqımızın qürur mənbəyi, böyüməkdə olan nəsil üçün örnəkdir.

Təsadüfi deyil ki, tarixin saxtalaşdırılması, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi, tarixin yenidən yazılması cəhdlərinə Azərbaycanda çox həssas yanaşırıq. Bu, təkcə tarixin təhrif edilməsi baxımından deyil, gələcək nəsillər üçün də böyük təhlükədir. Çünki onlar bu miflərə inana bilər, mahiyyət etibarilə tarixi həqiqətdən uzaqlaşa bilərlər. Buna görə biz müharibənin səbəbləri haqqında, təcavüzkarın kim olması və həm ölkəsini, həm də dünyanın yarısını XX əsrin bu taunundan xilas etmiş sovet xalqının qəhrəmanlığı barədə həqiqətin dünyaya çatdırılması üçün ümumi səylərimizlə çox fəal iş aparmalıyıq.

Aşqabad Zirvə Görüşü zamanı mən belə bir məsələ də qaldırdım ki, MDB məkanında da təəssüf ki, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi faktları var. Məhz Ermənistanda faşist cəllad Ter-Arutyunyan qəhrəman səviyyəsinə qaldırılıb. Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adam deyirdi ki, "Almaniya uğrunda ölənlər Ermənistan uğrunda ölür".

Ardı 2-ci səh.

## Qoşulmama Hərəkatının Bakı Zirvəsində Azərbaycana tam dəstək verildi

Mübaliğəsiz demək olar ki, müstəqillik dövründə Bakı beynəlxalq tədbirlərə tez-tez evsahibliyi edir. Həm də özündən əvvəl keçirilən tədbirləri sadəcə təkrar etmir, ona yeni forma verir. Onu elə bir səviyyəyə qaldırır ki, tədbir yeni məzmun və mükəmməl təşkilatçılıqdan xəbər verir. Bu dəfə də elə oldu.

Oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının "Bandunq prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda XVIII Zirvə Görüşü keçirildi. Zirvə görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər.

1961-ci ildə yaradılmış təşkilata üzv olan hər bir dövlət onun prinsiplərinə bağlılığını bildirməlidir. Hərəkata üzvlük prinsipləri hələ təşkilatın təsis olunmasından əvvəl, 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən konfrans zamanı qəbul edilib. Azərbaycan Respublikası 2011-ci il mayın 26-da Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil dəstəyini əldə edərək təşkilata tamhüquqlu üzv qəbul olunub.

Bu Zirvə görüşündə isə təşkilata sədrlik ölkəmizə keçdi. Azərbaycan 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək.

Ardı 4-cü səh.



## Yeni iş yerləri əhalinin gəlirlərinin artmasının əsas mənbəyidir

Sosial sferada həyata keçirilən islahatlar, bu istiqamətdə dövlət tərəfindən görülən tədbirlər sayəsində əhalinin rifah halının yaxşılaşmasında böyük dönüş yarandı. Son dövrlər bu məqsədlə qəbul edilən dövlət sənədləri də mühüm əhəmiyyət kəsb edir.

Təkcə əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəldilən iki paketin qəbulundan 4 milyon 200 min insan faydalanıb, minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə ölkəmiz MDB məkanında birinci yerdədir, orta pensiyanın səviyyəsinə görə üçüncü yerdə qərarlaşıb.

Əhalinin sosial rifahının yaxşılaşmasına yönələn mühüm tədbirlərdən biri də məşğulluğun təmin edilməsidir. Sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması bu sahədə mühüm rol oynayır. Belə ki, son illər yeni açılan iş yerlərinin 80 faizi özəl sektorda formalaşıb.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-sentyabr ayları ərzində statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayı 8,9 faiz artaraq bu il oktyabrın 1-i vəziyyətinə 141949 olmuşdur. Bu artım iqtisadiyyatın "Turistlərin yerləşdirilməsi və ictimai iaşə", "İnzibati və yardımçı xidmətlərin göstərilməsi, "Ticarət və nəqliyyat vasitələrinin təmiri", "Nəqliyyat və anbar təsərrüfatı", "Daşınmaz əmlakla əlaqədar əməliyyatlar", "Peşə, elm və texniki fəaliyyət", "Emal sənayesi" və "İnformasiya və rabitə" sahələrində daha çox olmuşdur.

Ardı 5-ci səh.

## Üzümçülükdə gəlirlər ildən-ilə artır



Əlverişli təbii-coğrafi şərait Azərbaycanda üzümçülüyün inkişafına imkan yaratmış, bəzi bölgələrdə əhalinin iqtisadi həyatında mühüm rol oynamışdır. Belə rayonlardan biri Tovuzdur.

Vaxtilə burada 10 min hektardan çox üzüm bağı olmuş, hər il 100 min tondan çox məhsul istehsal edilmiş, orta hesabla hər hektarın məhsuldarlığı 138 sentnerə çatdırılmışdı. Həmin dövrdə rayonda üzümün ilkin emalı üçün 12 şərab zavodu fəaliyyət göstərirdi. Lakin ötən əsrin 80-ci illərinin ikinci yarısında aparılan antialkoqol kampaniyası bu gəlirli sahənin məhvinə səbəb olmuşdu. Üzümçülüyə belə münasibət Sovetlər birliyi dağıldıqdan sonrakı ilk illərdə daha kəskin şəkil almış, demək olar, tamamilə məhv edilmişdi.

Bu gəlirli sahənin inkişafı Prezident İlham Əliyev tərəfindən reallaşdırıldı. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın qəbulundan sonra Tovuz rayonunda da bu istiqamətdə məqsədyönlü işlərə başlanıldı. Üzümçülüklə məşğul olan təsərrüfat sahiblərinə lazımi şəraitin yaradılması nəticəsində uğurlu göstəricilərə nail olunur. Hazrda rayonda 825 hektar üzüm bağı var. Onun 100 hektarı keçən il salınmışdır.

Ardı 5-ci səh.

# Hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir

*Əvvəli 1-ci səh.*

Bu adam SMERŞ tərəfindən tutularaq uzunmüddətli həbs cəzasına məhkum edilib və onun şərəfsiz ömrü Vladimir həbsxanasında başa çatıb. Bax, belə bir “xadim”ə heykəl qoyulub və bu heykəl indiyə qədər götürülməyib.

Mən həm dövlət başçılarının, həm də Ermənistanın yeni rəhbərliyinin diqqətini bu məqama cəlb etdim ki, MDB məkanında bu, yolverilməz hərəkətdir. Ermənistanın yeni rəhbərliyi özünün faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi ilə assosiasiya edilməsinə imkan verməməlidir. Təəssüf ki, bu heykəl indiyə qədər götürülməyib və bu, erməni tərəfin səmimiyyəti barədə çox böyük suallar doğurur. Erməni tərəfi deyir ki, o da qəhrəmanların xatirəsinə ehtiram bəsləyir. Bu, nonsensdir, ona görə ki, onlar faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəsləyir, yəni, əslində, bu mənfur əməllərə qarşı mübarizədə canlarından keçmiş insanların xatirəsinin təhqir edildiyini görürük. Buna görə biz öz tərəfimizdən bundan sonra da həm Birlik ölkələrinin, həm də digər dövlətlərin ictimaiyyətinin bu məsələyə diqqətini Qələbənin 75 illiyinə hazırlıq prizmasından cəlb edəcəyik. Düşünürəm ki, biz birgə səylərimizlə bundan sonra da işimizi bu istiqamətdə davam etdirəcəyik ki, Böyük Vətən müharibəsi haqqında həqiqət bütün dünya birliyinin, xüsusən gənc nəslin diqqətinə çatdırılsın.

Bugünkü iclas məsələsinə qayıdaraq, qeyd etmək istəyirəm ki, əlbəttə, sizin gündəliyiniz çox zəngindir. Əminəm ki, müzakirələr ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə kömək edəcək. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra çıxış edən Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı **Sergey ŞOYQU** dedi:

-Hörmətli cənab Prezident.

Bizimlə görüşmək üçün vaxt tapdığınıza görə Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Biz konkret olaraq Qələbənin gələcək yubileyi, ata və babalarımızın igidlikləri ilə bağlı xatirəni ümumi səylərimizlə qoruyub saxlamalı olmağımız barədə Sizin baxışlarınıza şərikik. Əlbəttə, o tarixi yenidən yazmaq, qalibləri məğlublar, məğlubları isə qaliblər kimi qələmə vermək məqsədilə göstərilən hər hansı cəhdlərə qarşı mübarizə aparmaq üçün nə mümkündürsə etmək lazımdır. Eyni sözlər bu böyük savaşın, ölkəmiz üçün ağır müharibənin gedişində törədilmiş cinayətlərə də aiddir. Bu gün bir tərəfdən tarixi yenidən yazmaq, digər tərəfdən qaliblərin məğlub sayılması üçün əlindən gələni etmək istəyənlərin sayı get-gedə artmaqdadır. Biz bunu nəzərə alaraq bütün həmkarlarımızı Moskvada keçiriləcək bayram tədbirinə dəvət etmişik ki, Birlik ölkələrindən olan hərbi kontingent Qızıl Meydanda Qələbə paradında iştirak etsin. Ümidvaram ki, azərbaycanlı hərbi qulluqçular da əvvəllər olduğu kimi, bu tədbirdə çox fəal iştirak edəcəklər.

Bizim gündəliyə gəldikdə isə, o, kifayət qədər genişdir. Əməkdaşlıq bizim birlikdə baxdığımız, təsdiq etdiyimiz planlar üzrə inkişaf edir. Burada xüsusi qeyd etmək istərdim ki, bu gün Rusiya beynəlxalq terrorizmə qarşı mübarizədə böyük təcrübə qazanıb, biz bu təcrübəni həmkarlarımızla bölüşməyə hazırıq. Bu, həm beynəlxalq terrorizmə qarşı mübarizə, həm humanitar kömək, o cümlədən minalardan təmizləmə, tibbi yardım və bir sıra başqa məsələlərə aiddir. Son hadisələr, Soçidə aparılmış danışıqlar, əldə edilmiş razılaşmalar, bizim Prezident və Türkiyə Prezidenti tərəfindən imzalanmış Memorandum çətinliklə həyata keçirilir, lakin görürük ki, bu, sülhün bərqərar olması, Suriyanın suverenliyinin qorunub saxlanması üçün yeganə üsuldur.

# Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə dövlət başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini bir daha diqqətə çatdıraraq münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu vurğuladı.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələri haqqında fikir mübadiləsi aparıldı.

## İ.M.Vəliyevin 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə İsmayıl Məhərrəm oğlu Vəliyev 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2019-cu il*

## *Hikmət HACIYEV:* “ABŞ Nümayəndələr Palatasının qondarma “erməni soyqırımı” haqqında qətnaməsini qərəzli və ədalətsiz hesab edirik”



“ABŞ Nümayəndələr Palatasının qondarma “erməni soyqırımı” haqqında qəbul etdiyi 296 saylı qətnaməni pisləyir, qərəzli və ədalətsiz hesab edirik. Bu qətnamənin heç bir siyasi, hüquqi və tarixi əsası yoxdur, ermənipərəst lobbi qruplarının səyləri nəticəsində qəbul edilib”.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, həmin dövrdə baş vermiş hadisələr siyasətçilər deyil, tarixçilər tərəfindən araşdırılmalıdır. Ermənistan və erməni lobbi dairələri qondarma “erməni soyqırımı”nı siyasi möhtəkirlik obyektinə çeviriblər. Onlar bu məqsədlə ermənilərin Cənubi Qafqazda və digər regionlarda törətdikləri cinayətləri ört-basdır etməyə çalışırlar. Ona görə də Ermənistan həmin dövrün hadisələrinin Birgə tarixi komissiya tərəfindən araşdırılması barədə Türkiyənin təklifini qəbul etmir. Tarixin saxtalaşdırılması, “tarixin yenidən yazılması” cəhdləri və onun siyasi təzyiq məqsədilə istifadə edilməsi qəbuledilməzdir.

## Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərində “Namizədlər üçün yaddaş” kitabçası hazırlayıb

Mərkəzi Seçki Komissiyası (MSK) 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar müxtəlif seçki subyektlərinin maarifləndirilməsi layihəsi çərçivəsində “Namizədlər üçün yaddaş” kitabçası hazırlayıb.




MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, layihənin həyata keçirilməsində və nəşrin hazırlanmasında məqsəd bələdiyyə üzvü seçilmək niyyətində olan vətəndaşların passiv seçki hüquqlarının reallaşdırılması üçün onlara metodiki yardım göstərmək və fəaliyyətlərinin daha da asanlaşdırılmasına imkan yaratmaqdır.

Nəşrdə bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi və qeydə alınması ilə bağlı atılası addımlar, qeydə alınmış namizədlərin hüquq və vəzifələri, onlara qanunla qadağan edilən məsələlər barədə ətraflı məlumat verilib.

Yaddaş kitabçası Azərbaycan Respublikasının Seçki Məcəlləsi və MSK-nın təsdiq etdiyi normativ xarakterli aktlar əsasında hazırlanıb.

“Namizədlər üçün yaddaş” kitabçasını aşağı seçki komissiyalarından, eləcə də MSK-nın rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək olar.

# MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçıları Şəhidlər xiyabanını ziyarət ediblər

Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin Müdafiə Nazirləri Şurasının Bakıda keçirilən növbəti iclasının iştirakçıları oktyabrın 30-da Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, iclas iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.



Qeyd edək ki, iclasda Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu, Belarus Respublikasının Müdafiə naziri general-leytenant Andrey Ravkov, Qazaxıstan Respublikasının Müdafiə naziri general-mayor Nurlan Yermekbayev, Özbəkistan Respublikasının Müdafiə naziri general-mayor Bahodir Kurbanov, Tacikistan Respublikasının Müdafiə naziri general-polkovnik Mirzo Şerali və Qırğız Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Rayimberdi Duyşenbiyev və MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Sergey Lebedev iştirak ediblər.

# Bakıda MDB Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib

Oktyabrın 30-da Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu, Belarusun Müdafiə naziri general-leytenant Andrey Ravkov, Qazaxıstanın Müdafiə naziri general-mayor Nurlan Yermekbayev, Özbəkistanın Müdafiə naziri general-mayor Bahodir Kurbanov, Tacikistanın Müdafiə naziri general-polkovnik Mirzo Şerali, Qırğızıstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Rayimberdi Duyşenbiyev və MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Sergey Lebedev iştirak ediblər.

Əvvəlcə iclas iştirakçıları xatirə şəkli çəkdiriblər.

İclasda çıxış edən Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirin ölkəmizdə keçirilməsindən məmnunluğunu ifadə edərək bildirib ki, xalqlarımızın dostluğu və ümumi irsi Azərbaycanda yüksək qiymətləndirilir. Nazir MDB Müdafiə Nazirləri Şurasının 77-ci iclasının Azərbaycanda keçirilməsi barədə qərarın qəbul olunmasına görə təşəkkürünü ifadə edib.

Tədbirin səmərəli keçəcəyinə və münasibətlərimizin gələcək inkişafına xidmət edəcəyinə əminliyini bildirən general-polkovnik Zakir Həsənov deyib: “Ümid edirik ki, bugünkü iclasımız ölkələrimiz arasında əməkdaşlığın inkişafına və dərinləşməsinə əlavə stimul verəcək, işbirliyinin yeni perspektivlərini müəyyən edəcək, habelə ölkələrimizdə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcək.



Fürsətdən istifadə edərək iclasın təşkilində göstərdikləri səylərə və dəyərli yardıma görə MDB Müdafiə Nazirləri Şurasının Katibliyində çalışan həmkarlarımıza minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, Azərbaycanda olmaqdan məmnun qalacaq, Bakı ilə daha yaxından tanışlıq və bu gün ölkəmizdə baş verən müsbət dəyişiklikləri yaxından izləmək imkanı əldə edəcəksiniz. Ölkələrimiz naminə qarşıda duran məsuliyyətli və mühüm məsələlərin həllində hər kəsə uğurlar və səmərəli iş arzu edirəm”.

Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu iclasın yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb, göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib.




MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Sergey Lebedev qeyd edib ki, təhlükəsizlik sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair prinsipial mövqe MDB Dövlət Başçıları Şurasının oktyabrın 11-də Aşqabadda və Hökumət Başçıları Şurasının oktyabrın 25-də Moskvada keçirilən iclaslarında bir daha təsdiqlənib.

O bildirib ki, MDB Müdafiə Nazirləri Şurasının fəaliyyəti çoxsahəli hərbi əməkdaşlığın inkişafına davamlı töhfələr verir. MDB ölkələrinin Müdafiə nazirlərinin hər bir görüşü üzv dövlətlərin hərbi əməkdaşlığın genişləndirilməsində ümumi maraqların olduğunu göstərir. Görüşün gündəliyində 20-dən çox məsələnin yer alması buna nümunədir.

İcraiyyə Komitəsinin sədri MDB-yə sədrliyin gələn il Özbəkistana keçdiyini xatırladıb.

İclasda şura üzvləri MDB ölkələrinin 2025-ci ilədək hərbi əməkdaşlıq konsepsiyasını təsdiq edib və MDB üzvü olan dövlətlərin Müdafiə nazirliklərinin 2025-ci ilədək radiasiya, kimyəvi və bioloji vəziyyətlə əlaqədar birgə monitorinq və qiymətləndirmə sisteminin hazırlanmasına dair əsas istiqamətləri nəzərdən keçiriblər.

Bundan başqa, iclasda “Beynəlxalq Ordu Oyunları-2019”un yekunları, MDB ölkələrinin silahlı qüvvələri üçün zabit kadrlarının hazırlanması, “Elmə başlanğıc” İnnovativ Elmi İdeyalar Beynəlxalq Festivalının keçirilməsi və İkinci Dünya müharibəsində Qələbənin 75 illiyinin qeyd edilməsinə hazırlıq məsələləri müzakirə olunub. Eyni zamanda, Birlik ölkələrinin 2019-cu ildə hərbi əməkdaşlığının inkişafının nəticələrinin yekunları müzakirə edilib.

İclasda MDB Müdafiə Nazirləri Şurasının 2020-ci il üçün İş Planı təsdiq edilib. Bundan başqa, iclasda cari hərbi əməkdaşlıq və qarşıda duran digər məsələlər də diqqət mərkəzində olub.

# Bakıda Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin təqdimatı keçirilib





Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yeni brendi olan SƏLİS - Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev SƏLİS barədə ətraflı məlumat verib. Bildirib ki, bu sistem vətəndaş cəmiyyətinin inkişafında yeni keyfiyyət mərhələsinin əsasını qoyan innovativ tətbiqdir. Onu yaratmaqda məqsəd qeyri-hökumət təşkilatlarına dövlət dəstəyini müasir dövrün tələblərinə uyğun şəkildə təşkil etmək, QHT-dövlət münasibətlərində yeni əməkdaşlıq modelini formalaşdırmaq, şuranın fəaliyyətində şəffaflığı, hesabatlılığı və səmərəliliyi daha da artırmaq, ictimai nəzarəti və qərar qəbulu prosesində vətəndaşların iştirakını təmin etməkdən ibarətdir. Şura Prezident İlham Əliyevin elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı, həmçinin dövlət qurumlarının göstərdiyi elektron xidmətlərin təkmilləşdirilməsi ilə əlaqədar imzaladığı fərman və sərəncamları rəhbər tutaraq, göstərilən xidmətləri tam elektronlaşdırmaq və keyfiyyətini yaxşılaşdırmaq məqsədilə 2019-cu ildə 20 yeni elektron xidmət istifadəyə verib. Bununla da elektron hökumətə keçid tam başa çatdırılıb. Bu xidmətlər Sürətli Əlaqələndirmə və Layihələri İdarəetmə Sistemi adı altında elektron bazada birləşdirilib.

Sonra Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin fəaliyyət istiqamətlərinə dair videoçarx nümayiş olunub.

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, dövlətimizin inkişafının təməl prinsiplərini Ulu Öndər Heydər Əliyev müəyyən edib. 1993-2003-cü illər dövlət quruculuğu baxımından çox əhəmiyyətli dövr idi. Bu dövrdə bir sıra qlobal layihələr reallaşdırıldı, beynəlxalq əlaqələrin qurulması baxımından mühüm addımlar atıldı. 2003-2006-cı illər Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin modernləşdirilməsi dövrü, yeni trendlərlə zəngin tarixi dönəmdir. Həmin dövrdə vətəndaş məmnunluğu ən ümdə dövlət prioritetlərindən biri olub. 2007-2008-ci illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə iki mühüm konsepsiya qəbul edildi. Bunlardan birincisi, QHT-lərə, yəni, vətəndaş təşəbbüslərinə dəstək konsepsiyası idi. Bu konsepsiyanı reallaşdırmaq üçün QHT-lərə Dövlət Dəstəyi Şurası yaradıldı. Digər konsepsiya isə KİV-in inkişafına dövlət dəstəyi konsepsiyası və bununla bağlı fondun (KİVDF) yaradılmasıdır. "Mən bu gün şura və fondun fəaliyyətlərini müqayisə etmək istəmirəm. Amma görünən budur ki, şura elektron xidmətə KİVDF-dən əvvəl keçdi. Bu, yaxşı nümunədir. Düşünürəm ki, KİVDF də bundan sonra KİV-ə göstərilən dəstəyi təmas olmadan, elektron hökumət vasitəsilə həyata keçirə, bu xidməti yarada bilər", - deyə Əli Həsənov əlavə edib.

Prezidentin köməkçisi diqqətə çatdırıb ki, vətəndaş məmnunluğunun təməlində sosial-iqtisadi və digər problemlərin həlli, firavan həyatın, təhlükəsizliyin təmin olunması, təşəbbüslərin dəstəklənməsi dayanır. Yeni yaradılan xidmətlərin, o cümlədən bu gün təqdimatı keçirilən SƏLİS-in də məqsədi vətəndaş cəmiyyəti quruculuğuna töhfə verməkdir.

Əli Həsənov qeyd edib ki, 2018-ci il prezident seçkilərindən sonra Prezident İlham Əliyev yeni islahatlar kursuna başlayıb. Bu kursun əsasını ictimai, siyasi, sosial, iqtisadi həyatımızın şəffaflaşdırılması təşkil edir. Bütün postsovet ölkələrində, o cümlədən dünya ölkələrində olduğu kimi, Azərbaycanda da hələ kölgə iqtisadiyyatı mövcuddur. Hələ də bəzi iş adamları dövlətin vergilərini tam şəkildə ödəmirlər, ayrı-ayrı sahələrdə inhisarçılıq var. Prezident İlham Əliyev iqtisadi müşavirədə bu məsələlərə toxundu. İslahatlar kursu, Azərbaycan cəmiyyətinin, iqtisadiyyatının, siyasətinin, sosial həyatının bütün sahələr üzrə şəffaflaşdırılması, kölgədən çıxarılması dövlətin iradəsidir və bu iradəyə qarşı çıxanlar cəzalandırılacaq. Prezident İlham Əliyevin həyata keçirdiyi, əsasını şəffaflaşdırma təşkil edən islahatlar kursu dövlət idarəçilik sisteminin struktur islahatlarından, idarəçilik sisteminin təkmilləşdirilməsindən başladı. Zərurəti şübhə doğuran qurumların ləğv olunması, birləşdirilməsi, orada çalışan insanların digər lazım olan sahələrə yerləşdirilməsi həyata keçirildi. Bunun ardınca iqtisadi islahatların konturları elan olundu. Dövlət büdcəsindən tutmuş xidmət sahələrinə, vergi yığımından tutmuş sahibkarlıq sahəsinə qədər həm struktur, həm dövlət idarəçilik sisteminin, o cümlədən sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi həyata keçirilir.

Milli Məclis Sədrinin müavini Bahar Muradova SƏLİS layihəsinin şəffaflığın təmin olunması istiqamətində böyük addım olduğunu deyib. Qeyd edib ki, şəffaflığın təmin olunması ilə bağlı Azərbaycanda dövlət səviyyəsində iş aparılır. Bununla bağlı qanunlar qəbul edilib. "QHT-lərin fəaliyyətindəki bəzi çatışmazlıqların aradan qaldırılması üçün mükəmməl elektron xidmət yaradılıb. Burada elektron vətəndaş və elektron apelyasiya xidmətini xüsusi qeyd etmək lazımdır. Bu gün hər bir vətəndaşın, QHT nümayəndəsinin bütün qurumlarla əlaqələri elektron formatda şəffaf şəkildə təmin olunur. Ölkəmizdə vətəndaş cəmiyyətinin yüksək səviyyədə fəaliyyəti üçün dövlət başçısı güclü siyasi iradə nümayiş etdirir. SƏLİS layihəsi vasitəsilə bütün donor təşkilatların cəlb edilərək ideyaların irəli sürülməsi, layihələrin hazırlanması, maliyyə vəsaitinin ayrılması, xərclənməsi, apelyasiyadan keçməsi məsələləri vətəndaşların diqqəti və nəzarəti altında olacaq. Vətəndaş cəmiyyəti qurumları, problemlərin həllini üzərinə götürən insanlar məsuliyyəti özləri daşıyacaqlar," - deyə Bahar Muradova vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib ki, SƏLİS həm dövlətin, həm də vətəndaşların mənafeyinə cavab verir. Bu sistem vasitəsilə vətəndaşlar şuranın xidmətlərindən fasiləsiz istifadə edə biləcəklər. Ülvi Mehdiyev bildirib ki, SƏLİS əlçatanlığı və şəffaflığı təmin edir. Sistem müasir idarəetməyə tam uyğundur.

BMT-nin Azərbaycan üzrə rezident əlaqələndiricisi Qulam İshaqzai Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sistemini vətəndaş cəmiyyətinin fəaliyyətində şəffaflığın təmin olunması baxımından əhəmiyyətli addım kimi dəyərləndirib. Bu istiqamətdə göstərilən bütün səylərin BMT tərəfindən yüksək qiymətləndirildiyini bildirən Qulam İshaqzai deyib: "SƏLİS və bu tipli digər layihələrə dəstək verməyə hazırıq. Ümid edirik ki, bu sistem özünü doğruldacaq".

Sonda Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin yaradılmasında iştirak edən şəxslərə fəxri diplomlar təqdim olunub.

# Litvanın Xüsusi İstintaq Xidmətinin baş direktoru Milli Məclisdə olub

Oktyabrın 30-da Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ölkəmizdə səfərdə olan Litva Respublikası Xüsusi İstintaq Xidmətinin nümayəndə heyətinin üzvləri ilə görüşüblər.



AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov Azərbaycan parlamentinin qanun yaradıcılığı prosesindən, ölkədə korrupsiya ilə mübarizə sahəsində qəbul edilən qanun və qərarlardan, Avropa İttifaqı ölkələri və digər dövlətlərlə ratifikasiya edilmiş konvensiyalardan ətraflı söz açıb. Bildirilib ki, bu gün ölkəmizdə gedən uğurlu inkişaf prosesində korrupsiya ilə mübarizə əsas yer tutur və bu, milli strategiyamızın tərkib hissəsidir. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı qəbul olunub, Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı təsdiq edilib. Hazırda ölkəmizdə korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumlar - Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi fəaliyyət göstərir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli rəhbərlik etdiyi komitənin işindən, qəbul edilən çoxsaylı hüquqi sənədlərdən söhbət açıb.

Litva Respublikası Xüsusi İstintaq Xidmətinin direktoru Zidrinas Bartkus Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində uğurlu iş qurulduğunu və yaxşı təcrübə əldə edildiyini deyib. Qonaq qeyd edib ki, ölkəsinə qayıtdıqdan sonra Azərbaycanın bəzi təcrübələrindən istifadə edəcəklər. O, xüsusilə "ASAN xidmət" modelini qeyd edərək bunun korrupsiyaya qarşı mübarizədə çox səmərəli vasitə olduğunu bildirib. Zidrinas Bartkus ölkəmizin qısa müddətdə müxtəlif sahələrdə əldə etdiyi uğurlardan da danışaraq məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirib.

# Milli Məclisdə Almaniya Bundestaqının müstəqil seçki komissiyasının nümayəndə heyəti ilə görüş

Oktyabrın 30-da Milli Məclisdə İPS - Beynəlxalq Parlament Təqaüdü proqramı çərçivəsində Almaniya Bundestaqının müstəqil seçki komissiyasının nümayəndə heyəti ilə görüş olub.

AZƏRTAC xəbər verir ki, Bundestaq tərəfindən maliyyələşdirilən İPS Azərbaycan gənclərinə Bundestaq üzvünün yanında Almaniyanın parlament sistemi və siyasi qərarvermə prosesi ilə tanış olmaq, parlament fəaliyyəti sahəsində praktiki təcrübə toplamaq, həmçinin ölkənin siyasi, iqtisadi və mədəni həyatına yaxından bələd olmaq imkanı yaradır.

Görüşdə Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyev ölkələrimiz arasında intensiv xarakter daşıyan ikitərəfli səfərlərdən, rəsmi görüşlərdən söz açdı.

Nümayəndə heyətinin başçısı, Bundestaqın deputatı Yan Metsler Almaniya-Azərbaycan əlaqələrinin möhkəmlənməsində dövlət başçılarının və parlament rəhbərlərinin qarşılıqlı səfərlərinin, həmçinin səfirlərin fəaliyyətinin mühüm əhəmiyyət daşıdığını qeyd etdi. Bildirdi ki, hazırkı səfərin məqsədi Beynəlxalq Parlament Təqaüdü proqramı çərçivəsində növbəti 15 həftəlik müddət üçün tələbə gənclər arasında seçim aparmaq idi. Müstəqil seçki komissiyasının seçkidən çox razı qaldığını bildirən Yan Metsler məmnunluqla vurğuladı ki, seçimə qatılanların yüksək təhsil almış, məqsədyönlü gənclər olması Azərbaycanın gözəl gələcəyini bu cür gənclərlə qurmağın mümkünlüyünə əminlik yaratdı. Söhbət zamanı ölkəmizə və xalqımıza münasibətdə dostluq duyğularını ifadə edən qonaq bir sıra yeni təkliflər də irəli sürdü.

Söhbət zamanı Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Asim Mollazadə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanla Almaniya arasında əməkdaşlıq əlaqələrinin daha da genişlənməsi üçün ciddi perspektivlər olduğunu qeyd etdilər. İPS proqramı çərçivəsində, həmçinin digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığa dair maraqlı təkliflər irəli sürdülər.

Qonaqlar Milli Məclis deputatlarının təkliflərini böyük maraqla qarşıladılar, səslənən fikirlərlə həmrəy olduqlarını bildirdilər. Fikir mübadiləsində səslənən təklifləri hər iki tərəfin nümayəndələri dəstəklədilər. Mövcud imkanlardan səmərəli istifadə olunmasının vacibliyi vurğulandı.

# Türkiyə Cümhuriyyətinin 96-cı ildönümü Naxçıvanda qeyd edilib





Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 96-cı ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak edib.

Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin 96-cı ildönümü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi məktubu oxuyub. Sonra baş konsul çıxış edərək ölkəsinin Cümhuriyyət bayramının Naxçıvanda qeyd olunmasının əhəmiyyətini qeyd edib. Azərbaycanla əlaqələrin inkişafını, o cümlədən ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolunu diqqətə çatdıran baş konsul əməkdaşlığın ilbəil genişləndiyini bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin müstəqillik bayramı - Cümhuriyyət elan edilməsinin 96-cı ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edərək deyib: "Türkiyə xalqının qəhrəmanlıq və vətənpərvərlik əzmi nəticəsində qazanılmış dövlət müstəqilliyi ötən 96 ildə daha da möhkəmləndirilmişdir. Böyük öndər Mustafa Kamal Atatürkün ideyalarına sədaqət Türkiyə Cümhuriyyətini dünyanın iqtisadi cəhətdən inkişaf etmiş, demokratik vətəndaş cəmiyyətinin bərqərar olunduğu dünyəvi və hüquqi dövlətinə çevirmişdir. Bir millətin iki dövləti olaraq ölkələrimiz arasındakı tarixi və milli bağlılıq, inam və etimad dostluq və qardaşlığımızı daha da möhkəmləndirir. Siyasi və iqtisadi əlaqələrimiz, strateji tərəfdaşlığımız Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı münasibətlərdə də özünü göstərir. İqtisadi-ticarət, nəqliyyat, təhsil, səhiyyə, turizm, mədəniyyət, ordu quruculuğu və digər sahələrdəki əməkdaşlıq məmnunluq doğurur". Ali Məclisin Sədri müstəqillik bayramı münasibətilə qardaş Türkiyə xalqını bir daha təbrik edib, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıb: "Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığıdır. Bu, əsas məsələdir və biz dostluğumuzun, qardaşlığımızın möhtəşəm binasını bu təməl üzərində inşa edirik".

# DİN və Baş Prokurorluq radikal müxalif qüvvələrin yeni mitinq çağırışları ilə bağlı məlumat yayıb

Xəbər verildiyi kimi, Demokratik Qüvvələrin Milli Şurası adlandırılan quruma daxil olan partiya və birliklər, o cümlədən özünü Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri kimi təqdim edən Əli Kərimli tərəfindən oktyabrın 19-da "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nümayişkaranə və kobud şəkildə pozularaq Bakı Metropoliteninin "28 May" stansiyasının önündə nəqliyyatın hərəkətinin iflic olmasına, ətrafdakı insanların haqlı narazılığına, ərazidə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin iş rejiminin və bütövlükdə ictimai asayişin pozulmasına səbəb olan qanunsuz aksiya keçirilməsinin və təxribat xarakterli digər əməllərin qarşısı alınıb, 60 şəxs barəsində inzibati xətalar haqqında qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülüb.

Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, qanunla qadağan edilmiş yerdə AXCP rəhbərliyi və aksiyanın təşkilatçıları tərəfində planlı şəkildə təşkil olunmuş həmin mitinqlər zamanı polisin qanuni tələblərinə məhəl qoyulmamaqla hüquqazidd əməllərin davam etdirilməsi ətrafdakı insanların haqlı narazılığına gətirib çıxarıb.

Respublikada sabitliyin pozulması məqsədi güdən bu cür qanunsuz hərəkətlərin qarşısının qətiyyətlə alınacağı barədə dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, son günlər Əli Kərimli və Azərbaycan Xalq Cəbhəsi Partiyasının rəhbərliyində təmsil olunan digər şəxslər, habelə ölkə ərazisində əvvəllər müxtəlif cinayətlər törətməklə saxta yollarla xarici ölkələrdə sığınacaq almış axtarışda olan və ermənipərəst xarici dairələrin idarə etdiyi və maliyyələşdirdiyi bir qrup satqınlar tərəfindən sosial şəbəkələrdə və internet informasiya ehtiyatlarında müxtəlif profillər, o cümlədən "AzerbaycanSaatı", "Turan Tv", "AzerFreedom TV", "Meydan Tv", "OsmanqızıTv" və digər kanallar vasitəsilə noyabrın 2-də Bakı Metropoliteninin "28 May" stansiyasının önündə qanunsuz aksiya keçirilməsinə yenidən çağırışlar edilir. Həmçinin oktyabrın 19-da peşə borcunu yerinə yetirib ictimai asayişin pozulmasının qarşısını almış polis əməkdaşları haqqında fərdi məlumatlar paylaşılaraq onların işgüzar nüfuzunu, şərəf və ləyaqətini ləkələyən, asayiş keşikçilərinə qarşı sosial ədavət və düşmənçilik hisslərinin oyadılmasına yönəlmiş təbliğat aparılır.

Qeyd olunmalıdır ki, Milli Şura adlandırılan qurumun noyabrın 2-də mitinq keçirmək barədə müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılaraq, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən, metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsinin qadağan edilməsi nəzərə alınmaqla mitinq üçün "Neftçi" idman klubunun Lökbatan qəsəbəsindəki təlim-idman bazası təklif edilib, lakin təşkilatçılar həmin tarixdə yenə də metropolitenin qarşısında razılaşdırılmamış qanunsuz aksiya keçirəcəkləri barədə məlumatlar paylaşıblar.

Bütün bunlar bir daha göstərir ki, xalq arasında nüfuzu, sosial dayağı olmayan və siyasi mübarizənin sivil metodlarını qəsdən inkar edən radikal müxalif qüvvələr məhz qanunla qadağan olunan yerlərdə küçə yürüşləri, mitinqlər, piketlər keçirməyə çağırışlar etməklə insanları dövlət orqanlarının qanuni tələblərinə tabe olmamağa, qarşıdurma yaratmağa, faktiki olaraq zorakılıqlar törətməyə, asayişi və sabitliyi pozmağa təhrik edirlər.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Azərbaycan dövlətçiliyinə qarşı açıq-aşkar düşmənçilik mövqeyində duran cılız bir müxalif qrupun istənilən qanunazidd əməllərinin qarşısının qətiyyətlə alınacağını diqqətə çatdıraraq bəyan edir ki, Milli Şura adlanan quruma daxil olan partiya və birliklər, eləcə də özünü Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri kimi təqdim edən Əli Kərimli və həmin partiyada təmsil olunan digər şəxslər qanunsuz kütləvi aksiyaya çağırışları, zorakılığı və qəddarlığı təbliğ edən təxribat xarakterli hərəkətləri ilə əslində Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsi kimi ekstremist bir yolu seçdiklərini təsdiq edirlər. Onlara bir daha xəbərdarlıq edilir ki, Bakı Şəhər İcra Hakimiyyətinin təklif etdiyi yerdən kənarda toplantı təşkil ediləcəyi, ictimai qaydanı, o cümlədən hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamaqda ifadə olunan, əhalinin dinc həyatını, rahatlığını, nəqliyyatın, müəssisə, idarə və təşkilatların normal fəaliyyətini pozan qanunsuz hərəkətlərə yol veriləcəyi təqdirdə bütün məsuliyyət üzərlərinə düşəcək.

Eyni zamanda, qanunvericiliyin pozulmasına görə "Siyasi partiyalar haqqında" qanunun 4-cü, 12-ci və 16-cı maddələrinə uyğun tədbirlərin görülməsi, hüquqazidd əməllər törətmiş şəxslərin isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 233-cü (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələri ilə məsuliyyətə cəlb olunması təmin ediləcək.

# Rusiya paytaxtında VIII Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi açılıb

## Sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib








Oktyabrın 29-da Rusiya paytaxtında VIII Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi açılıb.



AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Rusiya Dövlət Tretyakov Qalereyasında keçirilən sərgi "Məkan oriyentasiyası" mövzusuna həsr olunub. Müasir İncəsənət Biennalesində 11 ölkədən 34 rəssamın 50-dən çox əsəri nümayiş etdirilir.

Ekspozisiyada Azərbaycan rəssamları Orxan Məmmədovun "Estetikanın saxlanması ideyası" və Leyla Əliyevanın "Əbədiyyət" multimedia instalyasiyaları təqdim olunur.

Orxan Məmmədovun təqdim etdiyi instalyasiyada müxtəlif dövrlərə aid 50-dən çox Azərbaycan xalçasının naxışları toplanıb. Rəssamın süni intellektdən istifadə edərək hazırladığı art-obyektdə naxışlar bir-birini əvəzləyir.

Leyla Əliyevanın rəhbərliyi ilə 20 nəfərdən ibarət yaradıcı kollektivin videoart janrında hazırladığı "Əbədiyyət" əsərində insan cəsarətindən söhbət açılır. İlk dəfə olaraq Moskva Biennalesinin tərəfdaşı dünyanın ən sanballı qrafik əsərlər toplusu olan Avstriyanın məşhur Albertina muzeyidir. Sərgidə XX əsrin 11 məşhur rəssamının muzeydə saxlanılan əsərləri ümumi mədəni məkanda nümayiş etdirilir.

Biennalenin əsas layihəsinin kuratoru Moskvadakı "Federasiya" və "Moskva-Siti" komplekslərinin müəllifi Dmitri Çernyakov bir neçə pavilyonda müxtəlif mövzu və janrları kiçik kapsullarda və evlərdə ümumi dialoqda birləşdirib. Onun sözlərinə görə, bütün bu müxtəlifliyi bir-biri ilə uzlaşdırmaq heç də asan deyil. Bu səbəbdən sərgi "Məkan oriyentasiyası" adlandırılıb.

Biennaledə Rusiya, Avstriya, Bəhreyn, Almaniya, Səudiyyə Ərəbistanı, İtaliya, Almaniya, Çin, Niderland, ABŞ, Fransa rəssamları da iştirak edirlər.

Sərgi müddətində SSRİ Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti Tahir Salahov haqqında filmin çəkilişləri aparılacaq. Film klassik və müasir incəsənət arasında əlaqələrdən bəhs edən maarifləndirmə proqramı çərçivəsində nümayiş olunacaq.

Sərgi yanvarın 22-dək davam edəcək.

# 190 ölkənin öncülləri sırasında

Əvvəli 1-ci səh.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaydığı məlumata əsasən, bu göstərici üzrə kompleks biznes islahatları çərçivəsində "Daşınar əmlakın yüklülüyü haqqında" qanuna və Mülki Məcəlləyə edilən dəyişikliklərlə uyğunlaşdırmalar aparılması öz töhfəsini verib. Beləliklə, son dəyişikliklər nəticəsində aparılan sadələşdirmələrlə daşınar əmlakın bir kateqoriyasının ümumi formada təsvirinin verilməsi, gələcəkdə əldə ediləcək əmlakın yüklü edilməsinə, əsas öhdəliyin maksimal ölçüsünün göstərilməsinin mümkünlüyünə icazə verilir.

Kiçik investorların hüquqlarının müdafiəsi ilə əlaqəli olaraq Mülki Məcəlləyə və Mülki Prosessual Məcəlləyə edilən dəyişikliklərlə səhmdarların keçirilən əməliyyatlar nəticəsində vurulan zərərə görə direktoru məsuliyyətə cəlb etmək, iddiaçının konkret sənəd göstərilmədən işə dair bütün sənədləri tələb edə bilməsi, yaranan fikir ayrılığı üzrə həll mexanizmi və bu kimi digər yeniliklər mövcuddur.

Göründüyü kimi, son 4 ilin hesabatlarına görə Azərbaycan yüksəlişdədir. Ölkəmizin iqtisadi sahədə qazandığı nailiyyətlər, eləcə də həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır.

Bütün bunlar Azərbaycan Prezidentinin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

Bu uğurlar cənab İlham Əliyevin sosial-iqtisadi siyasətinin nəticələrinə beynəlxalq təşkilatların verdiyi qiymət olmaqla yanaşı, ölkədə sahibkar sinfi üçün yeni imkanların yaradıldığından, xarici investorlara edilən güzəştlərdən xəbər verir. Digər tərəfdən, ölkəmizin nüfuzlu hesabatda irəliləməsinə əsas səbəblər sırasında hökumətin əksər sahələrdə öz xidmətlərini elektronlaşdırmasını, bu xidmətlərin əlçatanlığının təmin olunmasını vurğulamaq mümkündür.

Azərbaycanın sosial-iqtisadi, humanitar sahələrdəki uğurlu inkişafı beynəlxalq təşkilatların diqqətindən yayınmır. Beynəlxalq qurumlar ölkələrin inkişafını diqqət və təhlil predmetinə çevirməklə onların qlobal əhəmiyyətini təsdiqləyirlər.

Əlbəttə ki, Azərbaycanın uğurlu inkişafının, tərəqqisinin kökündə Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi strategiyası durur. Bu ardıcıl siyasətin məntiqi nəticəsi kimi 15 oktyabr 2019-cu ildə Azərbaycanın növbəti beynəlxalq uğurunun şahidi olduq. Həmin gün Parisdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) qərargahında Azərbaycanın İƏİT-in İnkişafa Dəstək Komitəsinin tamhüquqlu üzvü qismində bu təşkilatda statusunun yüksəldilməsi barədə qərar qəbul edildi.

Bu təşkilatda birləşən ölkələrin böyük əksəriyyəti Avropa Birliyinin üzvüdür. Lakin Avropa Birliyinə daxil olmayan ABŞ, Kanada, Yaponiya, Türkiyə, Meksika və bir sıra digər ölkələr də bu təşkilatda təmsil olunur. Beynəlxalq statistikaya görə, dünya ÜDM-nin 60 faizi İƏİT ölkələrinin payına düşür. Azərbaycan MDB məkanında öz göstəricilərinə görə İƏİT-in İnkişafa Dəstək Komitəsinə üzvlük tələblərinə cavab verən ilk ölkədir.

Azərbaycanın bu təşkilatın İnkişafa Dəstək Komitəsi kimi elit kluba üzvlüyünü təmin edən faktorlar ölkəmizin davamlı inkişafının planlaşdırılması və idarə edilməsi, həmçinin inklüziv cəmiyyətin formalaşdırılması sahəsində uğurlarıdır.

Müstəqilliyinin bərpasından cəmi 28 il ötən bir ölkənin belə sürətli tərəqqisi rekord göstərici hesab olunur. Cənab İlham Əliyevin son 16 ildə həyata keçirdiyi məqsədyönlü, tam müstəqil siyasət bu uğurları şərtləndirən əsas amildir.

Əlbəttə ki, Azərbaycanın reytinqlərdə yüksələn mövqeyi təkcə beynəlxalq təşkilatların deyil, investorların da diqqətini cəlb edir. Yaradılan əlverişli biznes mühiti, investorlara edilən güzəştlər Azərbaycana investisiya axınını daha da sürətləndirir. Yəni Prezident İlham Əliyevin siyasi iradəsi ilə aparılan kompleks islahatlar nəticəsində "Doing Business" və digər beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin irəliləməsi ölkənin investisiya cəlbediciliyini artırmaqla, qeyri-neft sektoruna sərmayə qoyuluşunu da asanlaşdırır. Bu ilin 9 ayında iqtisadiyyata yatırılan 10,1 milyard manatlıq investisiya da onu deməyə əsas verir ki, investorların Azərbaycana olan marağı getdikcə artır.

Dövlət başçısı da həyata keçirilən islahatları dəyərləndirərkən deyib: "Biz neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi istiqamətində çox böyük uğurlar əldə etdik və Azərbaycan iqtisadiyyatımızın şaxələndirilməsi işində dünya miqyasında təbii resurslarla zəngin olan ölkələr sırasında qabaqcıl yerlərdədir. Təsadüfi deyil ki, biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı kimi ən aparıcı beynəlxalq maliyyə qurumu qiymətləndirir və biznes mühitinin səviyyəsinə görə biz dünyada 25-ci yerdəyik, 20 ən islahatçı ölkə arasındayıq. Eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumu illik hesabatında Azərbaycanı bir çox meyarlar üzrə qabaqcıl yerlərə layiq görübdür. Bütün bunlar aparılan islahatların nəticəsidir".

Onu da vurğulayaq ki, Dünya Bankının hər il hazırladığı hesabat biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. Azərbaycanın uğurları isə Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və dərin iqtisadi islahatlara verilən beynəlxalq qiymət olmaqla bərabər ölkəmizin reallığa çevrilən yeniliklərinin dünyanın ən nüfuzlu iqtisadi qurumlarının diqqətindən yayınmamasının əyani təzahürüdür.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Qoşulmama Hərəkatının Bakı Zirvəsində Azərbaycana tam dəstək verildi

Əvvəli 1-ci səh.

Hazırda Birləşmiş Millətlər Təşkilatından sonra ikinci beynəlxalq təşkilat olan, 120 daimi, 17 müşahidəçi üzv dövləti ətrafında birləşdirən Qoşulmama Hərəkatının konkret olaraq fəaliyyət istiqamətini müəyyən etsək, məlum olar ki, əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dövlətlərarası münasibətlərin qurulmasıdır. Yarandığı vaxtdan fəaliyyətini təhlil etdikdə məlum olur ki, Hərəkat zamana görə fəaliyyətini təmin edir. Soyuq müharibə dövründəki fəaliyyətindən fərqli olaraq, müasir dövrdə də öz fəaliyyət aktuallığını itirmir.

Mütəmadi olaraq Qoşulmama Hərəkatı daxilində üzv dövlətlərin beynəlxalq təşkilatlara tövsiyə ediləcək razılaşdırılmış mövqeyi hazırlanır. Əslində, bu vasitə Hərəkatın dolayı yolla qoşulmadığı proseslərin tənzimlənməsində mühüm rol oynamasına imkan verir. Qoşulmama Hərəkatı beynəlxalq hüquqa hörmət əsasında dünyada sülhün qərarlaşmasına çalışır. Əksər hallarda onun təşkilat fəaliyyətinin əsasında dünyada sülhə, təhlükəsizlik və inkişafa yardım etmək dayanır.

Bakı Zirvəsində dünyanı narahat edən çox mühüm problemlərlə əlaqədar baş verən böhranlar, regional məsələlər müzakirə edildi. Zirvə görüşündə müasir dünyanı təhdid edən mühüm məsələlərdən biri olan münaqişələrdən və onların həlli yollarından danışıldı. Tədbirdə Qoşulmama Hərəkatının mövcud geosiyasi mənzərədəki yeni reallıqlara adekvat olaraq rolunun aktivləşdirilməsinə nail olunması inamı ifadə edildi.

Bakı sammiti Azərbaycan üçün tarixi əhəmiyyətli hadisə kimi yaddaşlara yazıldı. Ona görə ki, Qoşulmama Hərəkatına daxil olan ölkələr Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdi və sammitdə Ermənistanın təcavüzü ilə əlaqədar onun işğalçı ölkə olması ifadəsi sənədlərdə əksini tapdı. 120 dövlət tərəfindən Ermənistan işğalçı dövlət kimi tanındı.

*Həsənbala SADIQOV,*
*Əməkdar müəllim, professor*

# Ölkə üzrə 257 min 773 ton pambıq yığılıb

Oktyabrın 30-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 257 min 773 ton məhsul təhvil verilib.

Qeyd edək ki, bu il Azərbaycanda 100111 hektar ərazidə pambıq əkilib. Saatlı (13741 hektar), Ağcabədi (10452 hektar), Biləsuvar (10257 hektar), Bərdə (10140 hektar), Beyləqan (9706 hektar), Sabirabad (8630 hektar) və İmişli (7492 hektar) ən çox pambıq əkini aparılmış rayonlardandır.

Azərbaycanda pambıqçılığın yeni inkişaf dövrü bu istiqamətdə əsaslı tədbirlərin görüldüyü, pambıqçılığın inkişafını nəzərdə tutan dövlət proqramının qəbul olunduğu 2016-cı ildən başlayıb. 2015-ci ildə pambıq əkini sahələri 18,7 min hektar, məhsul istehsalı 35,2 min ton təşkil edib. Həmin illə müqayisədə 2016-cı ildə əkin sahələri 2,7 dəfə artırılaraq 51,4 min hektara, pambıq istehsalı isə 2,5 dəfə artaraq 89,4 min tona çatdırılıb. Müstəqillik dövründə ən çox pambıq istehsalı isə 2018-ci ildə qeydə alınıb. Ötən il ölkə üzrə sahələrdən 230,4 min ton xam pambıq yığılıb. Bu, 2015-ci ilin göstəricisindən 6,54 dəfə çoxdur.

**30.10.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 30 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **100111,7** | **132512,0** | **75,5%** | **257773,54** | **181323,03** | **142,2%** |
| Ağcabədi rayonu | 10452,3 | 10000,0 | 104,5% | 28510,53 | 18973,54 | 1,5 dəfə |
| Ağdam rayonu | 2600,0 | 3100,0 | 83,9% | 6491,28 | 4511,78 | 143,9% |
| Ağdaş rayonu | - | 3185,0 | - | - | 3107,63 | - |
| Ağsu rayonu | 1000,0 | 2600,0 | 38,5% | 849,50 | 1484,95 | 57,2% |
| Beyləqan rayonu | 9706,1 | 9560,0 | 101,5% | 25563,56 | 16735,75 | 1,5 dəfə |
| Bərdə rayonu | 10140,0 | 9630,0 | 105,3% | 29166,58 | 19052,22 | 1,5 dəfə |
| Biləsuvar rayonu | 10257,7 | 12000,0 | 85,5% | 25824,37 | 16867,82 | 1,5 dəfə |
| Cəlilabad rayonu | 507,7 | 505,0 | 100,5% | 898,18 | 880,55 | 102,0% |
| Füzuli rayonu | 800,0 | 2100,0 | 38,1% | 1408,40 | 1676,96 | 84,0% |
| Goranboy rayonu | 3102,2 | 5000,0 | 62,0% | 6677,44 | 6456,03 | 103,4% |
| Hacıqabul rayonu | 400,0 | 1300,0 | 30,8% | 484,67 | 897,48 | 54,0% |
| İmişli rayonu | 7492,3 | 13645,0 | 54,9% | 16961,36 | 13941,75 | 121,7% |
| Kürdəmir rayonu | 2809,2 | 5030,0 | 55,8% | 5482,68 | 5251,55 | 104,4% |
| Neftçala rayonu | 5087,0 | 7000,0 | 72,7% | 14346,19 | 8300,23 | 1,7 dəfə |
| Saatlı rayonu | 13741,0 | 15815,0 | 86,9% | 36963,83 | 24334,40 | 1,5 dəfə |
| Sabirabad rayonu | 8630,0 | 13055,0 | 66,1% | 22026,68 | 13710,42 | 1,6 dəfə |
| Salyan rayonu | 4788,2 | 7055,0 | 67,9% | 13801,98 | 8365,13 | 1,6 dəfə |
| Samux rayonu | - | 400,0 | - | - | 847,76 | - |
| Tərtər rayonu | 3427,2 | 3300,0 | 103,9% | 10980,63 | 6204,70 | 1,8 dəfə |
| Ucar rayonu | 500,0 | 2500,0 | 20,0% | 897,51 | 1284,38 | 69,9% |
| Yevlax şəhəri | 2406,8 | 2500,0 | 96,3% | 5662,79 | 4630,63 | 122,3% |
| Zərdab rayonu | 2264,0 | 3232,0 | 70,0% | 4775,38 | 3807,37 | 125,4% |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Keçən il Azərbaycanda 132,5 min hektar sahədə pambıq əkilmişdi. 2019-cu ildə isə pambıq əkini sahələrinin həcmi məhsuldarlığı az olan torpaqların əkin dövriyyəsindən çıxarılması hesabına 100,1 min hektaradək azaldılıb. Bu addım pambıqçılıqda orta məhsuldarlığı artırmağa, pambıq əkini dövriyyəsindən çıxarılmış torpaqları daha səmərəli istifadə etməyə imkan verəcək. Artıq görülən işlər öz bəhrəsini verməkdədir. Əgər keçən il oktyabrın 30-dək 181 min 323 ton pambıq tədarük olunmuşdusa, bu ilin eyni dövründə ölkə üzrə pambıq qəbulu məntəqələrinə 257 min 773 ton məhsul təhvil verilib. Beləliklə, orta məhsuldarlıq ötən illə müqayisədə 8 sentnerədək artıb və nəticədə pambıq yığımında 42,2 faiz artım qeydə alınıb. Pambıq yığımı davam edir.

AZƏRTAC respublikada pambıq tədarükünə dair oktyabrın 30-na olan operativ məlumatı təqdim edir.

# Ermənistanın növbəti acizliyi

Azərbaycan diplomatiyasının uğurlu gedişləri Ermənistanın təcavüzkar siyasətinin ifşasında, onun işğalçı mahiyyətinin ortaya çıxmasında mühüm rol oynayır.

Elə bunun da nəticəsində Ermənistanın işğala siyasi, hüquqi don geyindirmək cəhdləri birmənalı şəkildə iflasa uğrayır. Ötən həftə Bakıda yüksək səviyyədə keçirilmiş Qoşulmama Hərəkatının XVIII dövlət və hökumət başçılarının Zirvə görüşünün yekun sənədi ilə bağlı Ermənistanın xarici işlər nazirliyinin bəyanatı uğursuz erməni xarici siyasətinin acizliyini və çarəsizliyini növbəti dəfə göstərdi.

Uğursuz və təcrid vəziyyətinə düşən Ermənistanın Qoşulmama Hərəkatının üzv dövlətlərini məsuliyyətsizlikdə və hörmətsiz davranış göstərməkdə ittiham etməsi təlaş içərisində olmağın göstəricisidir. Növbəti dəfə təsdiq olundu ki, beynəlxalq hüququn norma və prinsiplərinə, münasibətlərdə sivil davranışa hörmətsiz yanaşan dövlət məhz Ermənistandır.

Yekun sənəddə əks olunmuş müddəalar təcavüzkar və işğalçı Ermənistanın beynəlxalq təcridinin artmasını bir daha nümayiş etdirdi. Qoşulmama Hərəkatının üzv dövlətləri də daxil olmaqla dünya ictimaiyyətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanı dəstəkləməsi ölkəmizin haqlı və ədalətli mövqedə olmasıdır. Beynəlxalq hüququn norma və prinsiplərini, eləcə də Qoşulmama Hərəkatının təməl prinsiplərini kobudcasına pozaraq Azərbaycana qarşı qanunsuz zor tətbiq edən və torpaqlarımızın beşdəbirini işğal altında saxlayaraq həmin ərazilərin azərbaycanlı əhalisinə qarşı qanlı etnik təmizləmə həyata keçirən və münaqişənin danışıqlar yolu ilə həllinə maneə törədən Ermənistanın nə beynəlxalq hüquqdan, nə də sülh prosesi öhdəçiliyindən danışmağa haqqı var.

Azərbaycanın Ermənistana qarşı yürütdüyü siyasət və gördüyü tədbirlər indi işğalçı ölkənin tənəzzülünü daha dinamik hala gətirib. Ermənistanın gələcəyi ilə bağlı nikbin olmayanlar müxtəlif xarici ölkələrdə məskunlaşmağı indiki durumda ən yaxşı çıxış yolu sayırlar. Hazırda Ermənistanda ən böyük problemlərdən biri ölkədə miqrasiya tempinin yeni vüsət alması, daha çox sayda insanın xaricə üz tutmasıdır.

Azərbaycanın gördüyü tədbirlər Ermənistanın iflasını daha sürətli vəziyyətə gətirəcək. 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejimin hakimiyyətdən qovulmasını təmin edən şərtlərdən biri də məhz Prezident İlham Əliyevin həyata keçirdiyi təcrid siyasəti oldu.

İndi dünya miqyasında birmənalı qəbul olunan həqiqət budur ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Bundan əlavə, ölkəmiz ötən dövr ərzində yeni qlobal enerji və nəqliyyat layihələrinə start verməklə də Ermənistanın təcridini daha da dərinləşdirib. Başqa sözlə, Azərbaycan dünyanın bir çox dövlətləri ilə səmərəli əməkdaşlıq sistemi yaradır. Ermənistan isə işğal siyasətinə görə bu sistemdən kənarda qalır.

Xatırladaq ki, ötən il Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) son toplantısında da Ermənistan rəhbərliyinin bütün cəhdlərinə baxmayaraq, təşkilat çərçivəsində müşahidəçi və tərəfdaş dövlətin hüquqi statusunu müəyyən edən sənədə imza atıldı. Bu, o deməkdir ki, təşkilat Azərbaycanın regiondakı yerini, çəkisini, əhəmiyyətini nəzərə alaraq öz nizamnaməsində dəyişiklik etdi. Təşkilat yanında müşahidəçi dövlət statusunu müəyyən etdi.

Bir sözlə, Azərbaycan beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunması məqsədilə qlobal və regional səylərə daim fəal dəstək verir, dövlətlərarası və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığı genişləndirir. Bakıda mütəmadi olaraq təşkil olunan müxtəlif beynəlxalq tədbirlər, mötəbər beynəlxalq təşkilatlarda sədrliyin Azərbaycana etimad olunması dünya ictimaiyyətinin ölkəmizə verdiyi yüksək qiymətin təzahürüdür.

Azərbaycana qarşı yürütdüyü təcavüz və işğal siyasətinə görə isə Ermənistan geosiyasi və geoiqtisadi baxımdan özünütəcrid vəziyyətindədir. Onun düşdüyü bu vəziyyətdən yeganə çıxış yolu Azərbaycana qarşı işğala son qoyması, qonşu dövlətlərlə sivil münasibətlər qurmasıdır. Əks təqdirdə, bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər problemləri aradan qaldırmaq iqtidarında deyil.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Yeni iş yerləri əhalinin gəlirlərinin artmasının əsas mənbəyidir

*Əvvəli 1-ci səh.*

Eyni zamanda, "Ticarət və nəqliyyat vasitələrinin təmiri", "Digər sahələrdə xidmətlərin göstərilməsi", "Tikinti", "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" və "Peşə, elmi və texniki fəaliyyət" sahələrindəki statistik vahidlərin xüsusi çəkisi də yüksəkdir.

Hesabat dövründə xüsusi mülkiyyətə aid olan statistik vahidlərin 29,7 faizi "Ticarət və nəqliyyat vasitələrinin təmiri", 20,3 faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 10 faizi "Tikinti", 8,1 faizi "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", 6,8 faizi "Peşə, elmi və texniki fəaliyyət" və 5,7 faizi "Emal sənayesi" sahələrində qeydə alınmışdır.

Ölkəmizdə olan münbit investisiya mühiti həmişə xarici sərmayədarları özünə cəlb edir. Bunun nəticəsidir ki, xarici sahibkarlar ölkəmizə sərmayə yatırıb müəssisə açmağa maraq göstərirlər. Həmin dövrdə reyestrdə qeydiyyatdan keçən statistik vahidlərin tam xarici investisiyalı və birgə müəssisələr əsasən Türkiyə, İran, Rusiya, Böyük Britaniya, ABŞ və Almaniyadan olan sahibkarlar tərəfindən yaradılıb.

Yeni yaradılan statistik vahidlərin çox hissəsi ticarət, nəqliyyat vasitələrinin təmiri, müxtəlif sahələrdə xidmətlərin təşkili, inzibati və yardımçı xidmətlərin göstərilməsi, tikinti, peşə, elmi və texniki fəaliyyət və emal sənayesi sahələrində qeydə alınıb. Cari ilin yanvar-sentyabr ayları ərzində yeni yaradılan statistik vahidlərin 99 faizi xüsusi mülkiyyətli (o cümlədən 14,3 faizi tam xarici investisiyalı, 2,1 faizi birgə mülkiyyətli), 0,1 faizi bələdiyyə, 0,9 faizi isə dövlət mülkiyyətli müəssisələrin payına düşür.

Statistik rəqəmlərdən aydın görünür ki, bu il oktyabrın 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 92,2 faizini mikromüəssisələr təşkil edib. Onların da əsas hissəsi ticarət, digər xidmətlərin göstərilməsi, tikinti və kənd təsərrüfatı sahələrində yaradılıb. Həmin dövrdə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 2,1 faizini orta müəssisələr təşkil edib. Bunlar da əsasən ticarət, tikinti, emal sənayesi, nəqliyyat və anbar təsərrüfatı sahələrində yaradılıb. Ölkə üzrə kommersiya təşkilatlarının 0,5 faizini iri müəssisələr təşkil edib. Həmin müəssisələr əsasən ticarət, emal sənayesi, tikinti, nəqliyyat və anbar təsərrüfatı sahələrini əhatə edir. Statistik rəqəmlərə diqqət yetirdikdə görünür ki, kiçik, orta və iri müəssisələr daha çox yuxarıda qeyd edilən sahələr üzrə yaradılır.

Qeyd edək ki, ölkə üzrə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı daha yüksəkdir. Belə ki, cari il oktyabrın 1-i vəziyyətinə ölkə üzrə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı 903 mini keçib. Onlar da əsasən kənd təsərrüfatı, ticarət, xidmət, nəqliyyat və anbar təsərrüfatı sahələrində fəaliyyət göstərir. Fərdi sahibkarların 78,3 faizini kişilər, 21,7 faizini isə qadınlar təşkil edir.

Bu il oktyabrın 1-i vəziyyətinə, ilkin məlumatlara əsasən, ölkə üzrə iqtisadi fəal əhalinin sayı 5195,3 min nəfər olub ki, onların da 4943,6 min nəfərini məşğul əhali təşkil edib. Sentyabrın 1-i vəziyyətinə görə, muzdla işləyənlərin sayı 1611,1 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 899 min nəfər, qeyri-dövlət sektorunda isə 712,1 min nəfər olub. İqtisadiyyatın neft-qaz sektorunda 34,7 min nəfər, qeyri-neft-qaz sektorunda isə 1576,4 min nəfər işləyir. Oktyabrın 1-i vəziyyətnə məşğulluq xidməti orqanlarında qeydiyyata alınan işsizlərin sayı 74,1 nəfər təşkil edib ki, onların da 35,4 faizi qadınlardır. Həmin dövrdə işsizlikdən sığorta ödənişinin orta məbləği 296,6 manat olub.

Yeni iş yerlərinin açılması, minimum əməkhaqqı və pensiyanın artırılması əhalinin gəlirlərinin yüksəlməsinə imkan yaradıb. Belə ki, cari ilin yanvar-sentyabr aylarında ölkə əhalisinin nominal gəlirləri ötən ilin eyni dövrünə nisbətən 6,7 faiz artaraq 42202,7 milyon manat təşkil edib. Bu da əhalinin hər nəfərinin orta hesabla 4266,2 manatlıq gəlir əldə etməsi deməkdir.

Bu ilin yanvar-avqust aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı keçən ilin müvafiq dövrünə nisbətən 8,9 faiz artaraq 589,3 manat təşkil edib. Əməkhaqqı neft-qaz sektorunda 3073,7, qeyri-neft-qaz sektorunda 532,9 manata çatıb. Bu dövrdə dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 484,4, özəl müəssisələrdə isə 724,6 manat olub. Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksəkdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Yeni layihə iqtisadi islahatlara dəstək verəcək

### Layihədən strateji yol xəritələri çərçivəsində həyata keçirilən tədbirlərin monitorinqində və qiymətləndirilməsində istifadə ediləcək

"İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) elektron monitorinq və qiymətləndirmə infrastrukturunun modernləşdirilməsi" layihəsi başa çatdırılıb. Layihə çərçivəsində qabaqcıl proqram təminatı hazırlanıb. Proqram, adından da göründüyü kimi, İİTKM-in elektron monitorinq və qiymətləndirmə infrastrukturunun modernləşdirilməsinə dəstək məqsədi daşıyır.

Layihəyə keçən ilin oktyabr ayında İİTKM və BP şirkəti arasında imzalanmış Qarşılıqlı Anlaşma Memorandumundan sonra başlanmışdı. Sona çatdırılan layihənin təqdim etdiyi yeni proqram təminatından Azərbaycanda sosial-iqtisadi inkişaf üçün strateji yol xəritələri çərçivəsində hökumət tərəfindən həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsində istifadə olunacaq.

Sözügedən proqram təminatı İİTKM-in 50-yə yaxın dövlət orqanından, o cümlədən nazirlik, agentlik və komitələrdən müntəzəm olaraq aldığı iqtisadi məlumatları emal edəcək. Bununla bağlı İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı demişdir: "İslahat proseslərinin rəqəmsal platformalar vasitəsilə aparılması Prezident İlham Əliyevin ölkədə islahatların davamlı və ən qabaqcıl beynəlxalq təcrübələr və yanaşmaların tətbiqi vasitəsilə aparılması sahəsindəki tapşırıqlarının nəticəsidir. Yeni portalın yaradılması mərkəzin monitorinq institutu kimi qiymətləndirmə, nəzarət, koordinasiya və kommunikasiya imkanlarını artırmaqla bərabər, ölkədəki islahat proseslərinin də icrasına müsbət təsir göstərəcək".

BP-nin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli yeni proqramla bağlı fikrini belə ifadə etmişdir: "İİTKM ilə birgə mərkəzin elektron monitorinq və qiymətləndirmə infrastrukturunu modernləşdirmək layihəsini başa çatdırdıq. BP həmişə ölkədə iqtisadiyyatın diversifikasiyasına dəstək vermək öhdəliyinə sadiq qalıb. Biz Azərbaycanın davamlı iqtisadi inkişafına töhfə verəcəyinə əmin olduğumuz bu layihəni dəstəkləməkdən qürur duyuruq".

Yeni elektron portalı ölkədə monitorinq və qiymətləndirmə proseslərinin hesabatlılıq, şəffaflıq, çeviklik, obyektivlik, qanunun aliliyi, səmərəli qərar qəbuletmə və yaxşı idarəetmə prinsiplərinə əsaslanmaqla onların koordinasiyasına imkan verəcək. Bu cür idarəetmə ilk növbədə ədalətli təmsilçiliyə, bürokratik prosedurların azalmasına, cəmiyyətin ehtiyaclarının nəzərə alınmasına xidmət edir. Belə bir portalın istifadəyə verilməsi elektron platforma vasitəsilə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsinə, məlumat mübadiləsinə sərf olunan vaxtın maksimum azaldılmasına şərait yaradacaq. Digər tərəfdən, bu, müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artması, vətəndaşların dövlət idarəçiliyində və islahatların aparılması prosesində fəal iştirak etməyə cəlb olunması və bir sıra digər məsələlərdə də əlavə stimullar verəcək.

Xatırladaq ki, İİTKM strateji yol xəritələrində nəzərdə tutulan fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini, həmçinin öz səlahiyyətləri çərçivəsində dövlət qurumlarının sifarişi əsasında sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən tədbirlərin, habelə iqtisadi yönümlü dövlət proqramlarının monitorinqini və qiymətləndirilməsini həyata keçirir. Sözügedən proqramın gerçəkləşməsində mərkəzin tərəfdaşı olan BP Azərbaycanda ən iri neft-qaz və ixrac layihələrinin operatorudur, eyni zamanda sosial layihələri ilə ölkə iqtisadiyyatının digər sahələrinin inkişafına da dəstək verir.

İİTKM və BP-nin birgə hazırladıqları yeni layihənin ümumi dəyəri 204 min manatdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Qərbi Çıraq" platformasında planlaşdırılmış profilaktik işlər başa çatıb

AÇG-nin illik iş proqramının bir hissəsi olaraq "Qərbi Çıraq" platformasında oktyabr ayının 15-dən başlayaraq aparılan profilaktik işlər başa çatmışdır. Profilaktik işlər proqramında nəzərdə tutulmuş bütün işlər uğurla tamamlandıqdan sonra platforma işə salınmışdır və hazırda platformada hasilat tədricən əvvəlki səviyyəyə qaldırılır.



AÇG yatağının əməliyyatçısı olan BP-nin yaydığı məlumatda bildirilir ki, "Qərbi Çıraq" platformasında profilaktik işlər proqramı 15 günlük planlaşdırılmışdı. Proqrama əsasən məşəl və idarəetmə sistemlərinin yeniləşdirilməsi kimi müxtəlif layihə işləri daxil idi.

Belə proqramlar normal əməliyyatların bir hissəsidir və onlar planlaşdırılmış şəkildə müntəzəm həyata keçirilir. Proqramlar müntəzəm inspeksiya, profilaktik işlər və layihənin yerinə yetirilməsi fəaliyyətləri üçündür. Onlar obyektlərin uzunmüddətli təhlükəsiz, etibarlı, bütöv şəkildə, ətraf mühitə ziyan vurmadan istismarının bir hissəsidir və əsasən elə profilaktik təmir və modifikasiya işlərindən ibarət olur ki, həmin işləri yalnız obyektin fəaliyyətini müvəqqəti dayandıraraq həyata keçirmək mümkündür.

## İndoneziya ilə Azərbaycan kooperativ əməkdaşlığı genişləndirəcək

"The Jakarta Post" qəzetinə istinadla AZƏRTAC xəbər verir ki, bu barədə razılaşma İndoneziyanın Kooperativlər Assosiasiyasının sədri Sahala Panqqabean ilə Azərbaycanın İndoneziyadakı müvəqqəti işlər vəkili Ruslan Nəsibovun görüşündə əldə edilib.

Azərbaycanın İndoneziyadakı səfirliyində keçirilən görüşdə iki ölkə arasında işgüzar əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılıb. Yaxın dostluq münasibətlərinə malik İndoneziya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafında halal məhsullar istehsal edən kooperativlərin müxtəlif sənətlərin və turizmin inkişafı üçün mühüm rol oynaya biləcəyi qeyd olunub. Bu məqsədlə universitetlər nəzdində tədris mərkəzlərinin yaradılmasının sahə üzrə insan resurslarının formalaşmasına müsbət təsir göstərə biləcəyi vurğulanıb.

Bildirilib ki, qarşılıqlı əməkdaşlığın inkişafı məqsədilə birbaşa Cakarta-Bakı aviareysinin açılması da iki ölkə arasında turizmin inkişafına müsbət təsir göstərər.

İndoneziya tərəfi görüşün nəticəsi olaraq qarşılıqlı anlaşma memorandumunun layihəsinin hazırlanmasını və tezliklə müzakirə olunmasını təklif edib.

## Saxta və kontrafakt məhsullara qarşı mübarizə gömrükçülərin əsas vəzifələrindəndir

Ümumdünya Gömrük Təşkilatının Bakıdakı Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Saxta və kontrafakt məhsullara qarşı mübarizə strategiyası və məhsulların identifikasiyası" mövzusunda gömrük əməkdaşları üçün seminar keçirilib.

Tədbirdə Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Qulu Novruzov, REACT-ın Şimal-Şərqi Avropa və Orta Asiya regional direktoru Kazimieras Sarzickas, REACT-ın Azərbaycandakı nümayəndəsi Nəriman Ramazanov, xarici şirkətlərin nümayəndələri və gömrük əməkdaşları iştirak ediblər.

Seminarın açılışında çıxış edən Q.Novruzov bildirib ki, tədbirin əsas məqsədi saxta malların müəyyən olunması və onlara qarşı mübarizə aparılması ilə bağlı gömrük əməkdaşlarını maarifləndirməkdir. Saxta və kontrafakt məhsulların müəyyən olunmasının Dövlət Gömrük Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olduğunu deyən natiq qeyd edib ki, gömrük xidməti təhlükəsizlik, fiskal fəaliyyət sahələri ilə yanaşı, saxta məhsullara, onların dövriyyəsinə qarşı da ciddi mübarizə aparır.

Q.Novruzov seminarın mövzusunun təkcə Azərbaycan üçün deyil, dünyanın inkişaf etmiş ölkələrində də ciddi problem olaraq qaldığını iştirakçıların diqqətinə çatdırıb, bu vaxtadək Dövlət Gömrük Komitəsinin REACT-la sıx əməkdaşlıq etdiyini, gələcəkdə də bu istiqamətdə müxtəlif təlimlərin təşkil ediləcəyini xüsusilə vurğulayıb. Akademiya rəisi çıxışının sonunda məhsulun identifikasiyasına dair texniki detalların öyrənilməsini və iş prosesində tətbiqi ilə bağlı gömrük xidməti əməkdaşlarına maksimum faydalanmağı tövsiyə edib.

Nəriman Ramazanov isə çıxışında təmsil etdiyi qeyri-hökumət təşkilatı haqqında ətraflı məlumat verərək bildirib ki, seminarda REACT üzvü olan 14 xarici şirkətin nümayəndəsi iştirak edir və onlar orijinal məhsullarla saxta nümunələr arasındakı fərqi göstərməklə yanaşı, məhsulların identifikasiyası ilə bağlı təqdimatla çıxış edəcəklər. Kazimieras Sarzickas da seminarın önəmindən bəhs edərək saxta mallara, kontrafakt məhsullara qarşı mübarizə strategiyası ilə bağlı geniş məlumat verib.

Daha sonra xarici şirkətlərin nümayəndələri təqdimatla çıxış ediblər. Sonra gömrükçüləri maraqlandıran suallar cavablandırılıb. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

## Kadr islahatları iqtisadiyyata yeni nəfəs verəcək

Azərbaycanda son vaxtlar həyata keçirilən kadr islahatları ölkə mediasında diqqət yetirilən vacib mövzulardandır. Hamının marağına səbəb olan odur ki, Prezident istefa verən yüksək çinli dövlət məmurlarını şəxsən qəbul edir, gördükləri işləri yüksək dəyərləndirir. Bu görüşlərdə fəaliyyətləri ətraflı analiz edilən və dəyərləndirilən məmurlarla bir daha kadr islahatlarının mahiyyətinin incəlikləri açıq müzakirə olunur, dövlət quruculuğunda yeni iqtisadi siyasətin modelinin təməl daşını kadr islahatlarının təşkil etdiyi bir daha vurğulanır.

Bakının "Ağ evi"ndən - Prezident Administrasiyasından həm ölkəyə, həm dünyaya mesaj verilir ki, Azərbaycanın gələcəyi, perspektivləri yüksək rütbəli istənilən məmur üçün onun tutduğu vəzifədən daha önəmlidir. Hamı islahatların sürətlə həyata keçirilməsində maraqlıdır və lazım gələndə vəzifəni də ləyaqətlə tərk etməyi, mötəbər kürsüləri özlərindən sonra gələn gənc nəslə böyük məmnuniyyətlə həvalə etməyi bacarır. Bu, özlüyündə Azərbaycan dövlətçiliyi tarixində yeni və təqdirəlayiq mərhələdir. Artıq hamı aydın dərk edir ki, Prezidentin nümayiş etdirdiyi soyuqqanlı praqmatizm, sistemli və mərhələli islahatlar ayrı-ayrılıqda hər bir kəsin, bütünlükdə isə milli maraqların təmin olunmasına önəmli töhfə verir.

Dövlət quruculuğunda, iqtisadi proseslərin idarə olunmasında, əhalinin sosial maraqlarının təmin edilməsində Prezident İlham Əliyevin nümayiş etdirdiyi uzaqgörənlik, prinsipiallıq, eyni zamanda yüksək humanist keyfiyyətlər artıq dünya miqyasında araşdırılan və təlqin edilən ciddi mövzulardan biridir. Dövlət başçısı 16 il ərzində Bakını dünyanın ən gözəl şəhərlərindən birinə və Şərqin Parisinə çevirmişdir. Ərazisinin 20 faizi erməni işğalına məruz qalan bir ölkənin belə möhtəşəm güc, əzəmət və siyasi sabitliklə inkişaf etməsi nadir hadisələrdəndir. Bu, hamının eyni amala, eyni məqsədə can atmasını, iqtidar-xalq birliyinin yenilməzliyini təsdiq edir.

Bu baxımdan akademik Ramiz Mehdiyevin dövlət başçısı ilə görüşündə dedikləri mübaliğəsiz həqiqəti əks etdirir: "Azərbaycanı modernləşdirmək, XXI əsrin çağırışlarının tələblərini nəzərə alaraq xalqımızı öz ətrafınızda birləşdirmək, dövlətimizi yeni inkişaf mərhələsinə qovuşdurmaq missiyası məhz Sizə nəsib oldu. Bu gün heç kim inkar edə bilməz ki, cənab Prezident, Siz bu ali və tarixi missiyanın öhdəsindən layiqincə gəldiniz. Əgər Ümummilli Lider müstəqil Azərbaycan dövlətinin banisi kimi öz adını tarixə yazdırdısa, Siz müasir və inkişaf etmiş Azərbaycan dövlətinin qurucusu olaraq tarixə düşdünüz".

Bu gün Azərbaycan dinamik inkişaf etməklə, dünyanın nüfuzlu reytinq agentliklərinin hesabatlarında öncül yerləri qazanmaqla yanaşı, həm də beynəlxalq aləmdə demokratiyanın, sülhün və əmin-amanlığın qorunmasına davamlı töhfəsini verən nadir dövlətlərdəndir. Azərbaycan Prezidenti nailiyyətlərin uzun siyahısına fokuslanmadan islahatçı lider kimi əqidəsinə sadiqdir və gələcəklə bağlı davamlı islahatların bütün sahələrə dərin nüfuz etməsində israrlıdır.

Aqrar sektorda artıq böyük aqroparklar şəbəkəsi fəaliyyət göstərir. Bu aqroparklarda yeni sahibkarlar nəsli yetişir, yeni istehsal sahələri yaranır. Beləliklə, kənd təsərrüfatında tətbiqi elmlərin inkişafı, elm ocaqlarının istehsalatla birbaşa əlaqələrinin qurulması zərurətə çevrilir, müasir biliklərin, yeni texnologiyaların tətbiqi məhsuldarlığı dəfələrlə artırır. Lakin dövlət başçısı bu texnologiyaların səmərəli tətbiqi üçün onların daha geniş öyrənilməsini və təhlil edilməsini önəmli sayır. Belə yanaşma həmin texnologiyaların zərərli tərəflərindən sığortalanmaq, arzuolunmaz risklərdən yayınmaq üçün önəmlidir. Yeri gəlmişkən qeyd edək ki, bu məqsədlə ölkədə istehsal edilən qida məhsullarının bütün yüksək keyfiyyətlərə malik olmasını nəzarətdə saxlamaq üçün Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır.

İslahatların yeni mərhələsində elmi axtarışların, kəşflərin, innovasiyaların birbaşa iqtisadiyyata tətbiqi həm ölkə iqtisadiyyatının bir çox sahələrinin tərəqqisini təmin etməli, həm də ekoloji tarazlığın qorunmasına töhfəsini verməlidir. Bu baxımdan elm qarşısında yeni tələblər qoyulur, onlara ölkə iqtisadiyyatının bütün sahələri ilə sıx əməkdaşlıq tövsiyə edilir. Lakin bu tələblərlə yanaşı, alimlərin sosial rifahının, maaşlarının artırılması üçün vacib qərarlar da qəbul olunur və bu məsələ Prezidentin şəxsi nəzarətindədir: "Alimlərin maaşlarının artırılması üçün müvafiq göstərişlər verilibdir. Biz imkan daxilində bütün bu işləri görəcəyik".

Alimlərimizin innovativ ideya və kəşflərinin artmaları, onların ölkə iqtisadiyyatına tətbiqi bir nömrəli vəzifəyə çevrilir. Elmin inkişafı ilə yanaşı, yeni kadrların, xüsusən gənc kadrların yetişdirilməsi aktuallaşır. Prezident belə hesab edir ki, gənclər elə yetişməlidir ki, gələcəkdə ölkəmizi layiqincə idarə edə bilsinlər: "Gənclər milli ruhda tərbiyə olunmalıdır. İndi siz də yaxşı bilirsiniz, bu qloballaşma adı altında, demək olar ki, bəzi ölkələrin, xalqların milli mənliyi, elə bil, silinmək təhlükəsi ilə üzləşib. Qloballaşma adı altında eyniləşmə gedir, bəzi xalqlara yad olan dəyərlər aşılanır və biz buna müqavimət göstəririk. Biz elə gənclər yetişdirməliyik ki, onlar vətənə, xalqa bağlı olsunlar, müstəqilliyi hər şeydən üstün tutsunlar".

Bir sözlə, dövlət başçısı diqqəti inkişafımızın dayanıqlı olmasına yönəldir və belə hesab edir ki, islahatlar bütün ciddiyyəti ilə davam etdirilməlidir. Yeni iqtisadi modelin qayəsini alternativsiz davamlı islahatlar təşkil edir. Prezident eyni zamanda kadr islahatlarının labüd və qaçılmaz olduğunu bəyan edir: "XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar ilk növbədə vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Aİ ölkələrindən ən çox İtaliyaya məhsul göndərilib

Cari ilin yanvar-sentyabr aylarında Azərbaycan Avropa İttifaqına (Aİ) üzv ölkələr arasında ən çox İtaliyaya məhsul ixrac edib.

Dövlət Gömrük Komitəsindən bildirilib ki, Azərbaycanın 9 ayda ən çox məhsul ixrac etdiyi Aİ-yə üzv ölkələr İtaliya, Almaniya və İspaniya olub. İtaliyaya ixrac olunan məhsulların dəyəri 4 milyard 239,8 milyon, Almaniyaya 726,8 milyon, İspaniyaya isə 540,1 milyon dollar olub.

## Üzümçülükdə gəlirlər ildən-ilə artır



*Əvvəli 1-ci səh.*

Bağların 220 hektarı süfrə, qalanı texniki üzüm sortlarıdır. Texniki üzüm sortlarının emalı üçün bu yaxınlarda Aşağı Quşçu kəndində yeni üzüm emalı müəssisəsi istifadəyə verilmişdir. Süfrə sortlarının bir hissəsi bağlarda satılır, bir hissəsi soyuducu anbarlara yığılır. Yeni salınan üzüm bağları üçün tinglər rayonun təsərrüfatlarında yetişdirilir, dayaqlar Tovuzda hazırlanır.

Aşağı Quşçu, Düz Qırıxlı, Dondar Quşçu, Aşağı Mülkülü, Dönük Qırıxlı və digər kəndlərdə bağlardan hər il daha yüksək məhsul götürülür. Ən çox üzüm bağı Aşağı Quşçu kəndindədir. Burada 460 hektar üzüm bağı var. Aşağı Quşçu kənd sakinlərindən Şəhla Əliyeva, Xaqani Bədəlov, Firdovsi Müseyibov, Dönük Qırıqlı kənd sakinlərindən İsmayıl Əliyev, İsa Həsənov, Ziyad İsgəndərov, Əzəmət Əliyeva hər il bağlarda istehsal etdikləri məhsulun satışından on minlərlə manat gəlir götürürlər.

Aşağı Quşçu kəndinin sakini Kamil Hüseynov 30 hektar üzüm bağına xidmət edir. Onun 3 hektarı cavan, 27 hektarı barverəndir. Fermer 400 tonluq anbar da inşa etdirmişdir. Üzümün becərilməsində, yığılan məhsulun daşınmasında bütün texnikaya malik fermer söhbət zamanı dedi ki, Prezident sahibkarlara hər cür qayğı göstərir. 2020-ci il yanvarın 1-dən etibarən yeni salınmış üzüm bağlarına görə hər hektara 600 manat subsidiya da ödəniləcəkdir.

İndi rayonda yeni üzüm bağlarının salınması üçün hazırlıq işlərinə başlanılıb. Yeni bağlarda əkiləcək tinglərin 80 faizi daxili imkanlar hesabına təmin ediləcək. Təsərrüfat sahibləri daha çox yerli üzüm sortlarına üstünlük verirlər. Bu sortlar həm yerli iqlimə uyğundur, həm də maya dəyəri ucuz başa gəlir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan bəstəkarlarının X qurultayı keçirilib

## Xalq artisti Firəngiz Əlizadə növbəti dəfə Azərbaycan Bəstəkarlar İttifaqının sədri seçilib





Oktyabrın 30-da Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) növbəti - X qurultayı keçirilib.

AZƏRTAC xəbər verir ki, Xalq artisti Firəngiz Əlizadə növbəti dəfə Azərbaycan Bəstəkarlar İttifaqının sədri seçilib.

Qurultayda ABİ-nin sədri, Xalq artisti Firəngiz Əlizadənin hesabatı dinlənilib.

O, son illərdə qazanılan uğurlardan, həyata keçirilmiş layihələrdən, gənc istedadlara göstərilən dövlət qayğısından danışıb.

Qeyd edilib ki, 2013-2019-cu illəri əhatə edən hesabat dövründə bəstəkar və musiqişünaslar öz yaradıcılıqları ilə Azərbaycan musiqi mədəniyyətini inkişaf etdirib, yeni əsərlərlə milli bəstəkarlıq məktəbinin ənənələrini layiqincə qoruyub saxlayıb.

Vurğulanıb ki, müasir Azərbaycan musiqi mədəniyyəti çox zəngin bir bəstəkarlıq məktəbi üzərində qurulub. Ulu Öndərimiz Heydər Əliyev bəstəkarlara və musiqiçilərə daim diqqət və qayğı göstərib. Bu yüksək qayğı hazırda Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Diqqətə çatdırılıb ki, Azərbaycan bəstəkarlarının əsərləri ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səyi və təşəbbüsü ilə həyata keçirilən beynəlxalq musiqi festivallarında hər zaman maraqla qarşılanıb.

Firəngiz Əlizadə deyib: “Fəaliyyət göstərdiyi böyük hadisələrlə zəngin zaman kəsiyində Azərbaycan bəstəkarlarını və musiqişünaslarını öz sıralarında birləşdirən Azərbaycan Bəstəkarlar İttifaqı nüfuzlu yaradıcılıq birliyi kimi ölkəmizin mədəni həyatında fəal iştirak edir, yüksək səviyyəli musiqi əsərlərinin yaranmasına hərtərəfli dəstək verir, özünün rəngarəng, əhəmiyyətli tədbirləri ilə musiqi həyatında daim canlanma yaradır”.

Diqqətə çatdırılıb ki, Azərbaycan Bəstəkarlar İttifaqının təsis etdiyi və geniş vüsət aldığı “İpək yolu” Beynəlxalq Musiqi Festivalı qədim tarixə və zəngin musiqi ənənələrinə malik Şəki şəhərində artıq ardıcıl olaraq böyük müvəffəqiyyətlə keçirilir.

Mövcud problemlərdən də danışan ABİ-nin sədri son illər irihəcmli əsərlərə çox az müraciət edildiyini söyləyib və bəstəkarlarımızın bu sahəyə diqqət ayırmasını tövsiyə edib. O, bəstəkarlarımız haqqında internetdə məlumatların az olduğunu qeyd edərək alman, ingilis, fransız bəstəkarları ilə yanaşı, Azərbaycan bəstəkarları haqqında məlumatların da internetdə geniş şəkildə yer almasının zəruriliyini söyləyib.

Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək bəstəkarlıq məktəbinin inkişafından, ölkəmizdə mədəniyyət sahəsinə göstərilən diqqət və qayğıdan söz açıb.

O, bildirib ki, Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Azərbaycan musiqisinə göstərdikləri qayğı göz önündədir: “Bir çox ölkələrdə sənət adamlarına fəxri adlar, təqaüdlər, mənzillər verilmir. O ölkələrdə yaradıcılıq biznes mühitinə çevrilib. Azərbaycanda isə yaradıcılığa verilən dəstək məlumdur. Sirr deyil ki, həm yaradıcılıq ittifaqlarının fəaliyyətinə diqqət edilir, həm də fərdi şəkildə yaradıcı şəxslərə dəstək göstərilir”.

Artıq Azərbaycanda bir sıra dünya səviyyəli festivallar təşkil olunduğunu bildirən nazir deyib ki, yaranan hər yeni əsər təkcə hansısa bəstəkar üçün deyil, bütövlükdə xalqımız üçün də əhəmiyyətli hadisədir.

Bildirilib ki, ötən dövrdə bu təşkilat peşəkar bəstəkarlar və musiqişünasların yaradıcılığının formalaşmasında mühüm rol oynayıb. Bu ittifaqa Azərbaycanın görkəmli bəstəkarları rəhbərlik ediblər. Bu gün Bəstəkarlar İttifaqı Azərbaycanda ən nüfuzlu təşkilatlardan biridir. Bu nüfuzu yüksəltmək üçün ittifaq tərəfindən mühüm işlər görülür və bir sıra layihələr həyata keçirilir. Azərbaycan musiqisini beynəlxalq miqyasda tanıtmaq, onu dünya səhnələrində səsləndirmək və zəngin mədəniyyətimizi təbliğ etmək istiqamətində görülmüş işlər bunu bir daha sübut edir.

Nazir qeyd edib ki, Ağa Xan Fondu (“Aga Khan Foundation”) bu il ilk dəfə olaraq musiqi sahəsində beynəlxalq mükafat (“Aga Khan Music Award”) təsis edib. Bəstəkarlıq sahəsində mükafatın ilk laureatının azərbaycanlı bəstəkar və pianoçu, 2007-ci ildə UNESKO-nun “Sülh artisti” (“Artist for Peace”) adına layiq görülmüş Firəngiz Əlizadə olması hamımızı sevindirib.

Nazir ölkədə Üzeyir Hacıbəyli, Mstislav Rastropoviç, Qara Qarayev adına, eləcə də başqa nüfuzlu musiqi festivallarının keçirildiyini vurğulayaraq bəstəkarlarımızın bu işə laqeyd münasibətini təəssüf hissi ilə qeyd edib. Bildirib ki, ölkədə ümumi mədəni mühitin formalaşdırılmasında bəstəkarlarımız da yaxından iştirak etməlidirlər. O, bəstəkarları bu kimi tədbirlərdə aktiv iştirak etməyə çağırıb.

Ə. Qarayev, eyni zamanda, son illər filmlərimizdə qorxunc, heç bir ümid verməyən fon musiqilərinin səsləndiyini vurğulayıb. Qeyd edib ki, əgər belə davam edərsə, filmlərimizdə, seriallarda texniki musiqidən başqa musiqi dinləməyəcəyik. Nazir bəstəkarların bu məsələlərə ciddi yanaşmasının vacibliyini söyləyib.

Mədəniyyət naziri Bəstəkarlar İttifaqına Azərbaycan musiqisinin növbəti 5-10 il ərzində hansı meyarlara doğru inkişaf edəcəyini müəyyənləşdirməyi tövsiyə edib. Bir sıra mövcud problemlərin aradan qaldırılması üçün Bəstəkarlar İttifaqı üzvlərinin səy göstərməli olduğunu bildirib.

Sonra ABİ-nin rəhbər orqanlarına seçkilər keçirilib. 21 nəfərdən ibarət idarə heyəti və 5 nəfərdən ibarət nəzarət-təftiş komissiyası müəyyənləşib.

Nəzarət-təftiş komissiyasının üzvü Elnarə Dadaşovanın məruzəsi dinlənilib.

Qurultay iştirakçıları açıq səsvermədə Xalq artisti Firəngiz Əlizadəni yekdilliklə növbəti müddətə ittifaqın sədri seçiblər.

# Dövlət İdarəçilik Akademiyasında “Ulu Öndər” sənədli filmi nümayiş olunub



Gənclər və İdman Nazirliyi tərəfindən hazırlanan “Ulu Öndər” sənədli filmi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) nümayiş olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən akademiyanın professoru, siyasi elmlər doktoru Elçin Əhmədov Ümummilli Lider Heydər Əliyevin müdrik rəhbərliyi ilə 1969-1982-ci illərin Azərbaycanın intibah dövrü kimi tarixə çevrildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, otuz beş ilə yaxın bir müddətdə Azərbaycanın taleyi dahi şəxsiyyət, görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevlə bağlı olub. Ümummilli Lider Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin tərəqqisi yolunda, indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir. Bu irsi öyrənmək və təbliğ etmək bizim hər birimizin məsul və şərəfli borcudur.

Əlli il əvvəl - 1969-cu il iyulun 14-də Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Ümummilli Lider Heydər Əliyev millətin və dövlətin taleyinə qüdrətli xilaskar rəhbər kimi daxil olaraq Azərbaycanda öz quruculuq tədbirləri ilə şərəfli bir tarix yazdı. Ulu Öndər Heydər Əliyev 1976-cı ilin mart ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Bürosunun üzvü seçilib, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Lakin 1987-ci ilin oktyabrında Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib M.Qorbaçovun yeritdiyi yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verib.

Sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar Heydər Əliyev ertəsi gün ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək orada bəyanat verib, SSRİ hakimiyyətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın əməliyyatını pisləyib. Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışıb. Ulu Öndər, ilk növbədə, Naxçıvanı Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. Blokada şəraitində yaşayan muxtar respublikanın ağır iqtisadi-sosial problemlərini həll etmək üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaratdı.

Bu illərdə həm də Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Ali Məclisi onun adından “sovet” və “sosialist” sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi təsdiq edilməsi, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təsis olunması haqqında qərarlar qəbul etdi.

1993-cü ilin ikinci yarısında xalqın tələbi ilə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz Ümummilli Liderin adı və fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər də respublikamız üçün həlledici illər olub. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulub. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilib, Azərbaycan dünya birliyinə qovuşub. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və tarixi nailiyyətlərlə zəngin olan bu uğurlu siyasətin təməlində Azərbaycanın milli maraqlarının hər zaman üstün tutulduğunu əminliklə söyləmək olar.

Sonda gənclər film haqqında təəssüratlarını bölüşüblər.

# Heydər Əliyev Mərkəzində “Etiket və peşəkar ünsiyyət” mövzusunda mühazirə oxunub






İşgüzar və kübar ünsiyyət üzrə tanınmış mütəxəssis Tatyana Polyakova oktyabrın 29-da Heydər Əliyev Mərkəzində çıxış edib.

AZƏRTAC xəbər verir ki, o, “Etiket və peşəkar ünsiyyət” mövzusunda mühazirə oxuyub.

Tədbirdən əvvəl jurnalistlərə müsahibə verən Tatyana Polyakova bildirib ki, Azərbaycana gəlmək onun çoxdankı istəyi idi. Bakılıların qonaqpərvərliyi onu valeh edib. O deyib: “Mən səyahət etməyi, özüm üçün yeni ölkələr kəşf etməyi, müxtəlif xalqların adət-ənənələri ilə tanış olmağı çox sevirəm. Hər bir xalqın etiket barədə öz təsəvvürü var. Mənim əsas məqsədim bunları öyrənmək və öz biliklərimi başqaları ilə paylaşmaqdır. Məni Heydər Əliyev Mərkəzi kimi möhtəşəm binada mühazirə oxumağa dəvət etdiklərinə görə təşkilatçılara təşəkkürümü bildirirəm. Bu, mənim Azərbaycana ilk səfərimdir, lakin əminəm ki, sonuncu deyil”.

Tatyana Polyakova gecədə insan haqda təəssürat yaradan əsas məqamlardan söz açıb, səs tembri, geyim tərzi, baxış, intonasiya, nitq qabiliyyəti, xahiş və minnətdarlıq ifadələri, hədiyyələr və hətta ayaqqabı dabanının hündürlüyü kimi maraqlı nüanslara toxunub. O, eleqantlılığın əsas əlamətlərindən, davranış qaydalarından danışıb.

Bir çox ölkələrdə geniş auditoriyası olan Tatyana Polyakova Avropada, Amerikada mövcud olan etik normalardan və Asiya ölkələrinə xas ənənələrdən də danışıb, davranış və nəzakət qaydalarında genetik ənənələri öz xeyrinə necə istifadə etməyin sirlərini açıqlayıb.

Mühazirə böyük maraqla qarşılanıb.

Qeyd edək ki, Tatyana Polyakova dünyada etiket üzrə tanınmış mütəxəssisdir. Monako Knyazlığında etiket öyrətmək üzrə lisenziyanın yeganə sahibidir. Mədəniyyətlərarası kommunikasiya üzrə kursların müəllifidir. O, bir neçə xarici dildə danışmaq bacarığını, beynəlxalq şirkətlərdə iş təcrübəsini, etnoqrafik ekspedisiyalarını və səyahətlərini böyük məharətlə ünsiyyət və etiketə dair biznes-layihəyə çevirib.

# *Səməd SEYİDOV:* “Bəzi destruktiv qüvvələr təxribatçı addımlarla Azərbaycanın beynəlxalq münasibətlərinə xələl gətirməyə cəhd edirlər”

“Azərbaycanın beynəlxalq münasibətləri uğurla inkişaf edir. Dövlət başçısının son vaxtlar həm xaricdə, həm də ölkəmizdə keçirilən tədbirlərdəki çıxışları Azərbaycanın beynəlxalq münasibətlərinin dünyada ən yüksək səviyyədə olmasına dəlalət edir. Bu, bir faktdır. Lakin Azərbaycanın beynəlxalq münasibətləri inkişaf etdikcə, dünyadakı rolu artdıqca, mövqeyi möhkəmləndikcə ölkəmizə qarşı destruktiv qüvvələrin təzyiqi də artır”.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

Səməd Seyidov deyib: “Təəssüf ki, bu münasibət beynəlxalq təşkilatlarda, hansısa ölkələrdə fəaliyyət göstərən qurumlarla kifayətlənmir, o cümlədən daxildən də bu cür qüvvələr çalışırlar ki, ölkəmizin münasibətlərinə xələl gətirsinlər. Xüsusilə Azərbaycanın Avropa İttifaqı ilə inkişaf etdirdiyi münasibətlərinə xələl gətirmək istəyən qüvvələr göz qabağındadır. Azərbaycan danışıqlar prosesini ən yüksək səviyyədə aparır və ölkəmiz Avropa İttifaqına daxil olan ölkələrlə birbaşa strateji əməkdaşlıq müqavilələri imzalayır. O cümlədən Avropa İttifaqının özü ilə də münasibətlər ən yüksək səviyyədə təşkil olunub. Qeyd edilən destruktiv qüvvələr səfirliklərə, beynəlxalq təşkilatların Bakıda fəaliyyət göstərən nümayəndəliklərinə müraciət edərək müxtəlif görüşlər keçirir, həmin təşkilatların və səfirliklərin mövqelərini təhrif edərək öz maraqları baxımından təqdim edirlər. Bu qüvvələr belə təxribatçı addımlar atmaqla Azərbaycanın həm beynəlxalq təşkilatlarla, həm də ayrı-ayrı ölkələrlə münasibətlərini gərginləşdirmək məqsədi güdürlər. Bu, açıq-aydındır.

Mən Milli Məclisin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri kimi bilirəm ki, Azərbaycanda fəaliyyət göstərən səfirliklər və beynəlxalq təşkilatlar obyektiv mövqe nümayiş etdirmək və düzgün fikir söyləmək üçün kifayət qədər imkanlara malikdirlər. Ancaq bu destruktiv qüvvələr beynəlxalq təşkilatların və səfirliklərin adlarından bəyanatlar verməklə və onların mövqelərini öz mövqelərinə süni şəkildə uyğunlaşdırmaqla Azərbaycan vətəndaşlarında ölkəmizin beynəlxalq əlaqələri ilə bağlı yanlış fikir formalaşdırmağa, onları çaşdırmağa çalışırlar. Həmin qüvvələr bilməlidirlər ki, bütün bunlar təxribatdır və biz buna qarşı çıxırıq. Görünən odur ki, destruktiv qüvvələr yeni taktika seçiblər. Həmin qüvvələr qanunun aliliyi və demokratiyanın, insan haqlarının beynəlxalq təşkilatlarda və müxtəlif qurumlarda ali dəyərlər kimi müdafiə olunması zəminindən istifadə edərək öz mövqelərini ölkəmizdə fəaliyyət göstərən səfirliklərin və beynəlxalq təşkilatların mövqeləri kimi təqdim etməyə cəhd göstərirlər. Onlar Azərbaycan vətəndaşını çaşdırmaqla qeyri-qanuni addımlar atırlar”.

Səməd Seyidov vurğulayıb ki, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Azərbaycan beynəlxalq təşkilatlarda getdikcə öz mövqeyini möhkəmləndirir. Destruktiv qüvvələr də məhz həm Avropa İttifaqında, həm Avropa Parlamentində, həm də Avropa Şurasında bu münasibətlərin daha da inkişaf etdirilərək yeni müstəviyə qaldırılmasını görərək və bunu qəbul etməyərək bu cür təxribatlara əl atırlar. Həmin beynəlxalq təşkilatlar və ölkəmizdəki səfirliklər onların adlarından çıxış edən, mövqelərini təhrif edən destruktiv qüvvələrin bu cür təxribatçı addımlar atmaqla Azərbaycanın münasibətlərinə xələl gətirməyə cəhd göstərdiklərini nəzərə almalı və buna qarşı çıxmalıdırlar.

# ABŞ yəhudi təşkilatlarının nümayəndələri Azərbaycandakı tolerant mühit barədə məlumatlandırılıb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı oktyabrın 30-da ölkəmizdə səfərdə olan ABŞ yəhudi təşkilatlarının nümayəndələri ilə görüşüb.

DQİDK-dan AZƏRTAC-a verilən məlumata görə, sədr qonaqlara komitənin fəaliyyət istiqamətləri, eyni zamanda, Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dinlərarası tolerantlıq və harmoniya haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan əhalisinin 96 faizi müsəlmanlardır. Ölkəmizdə müsəlmanlar, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq şəraitində birgə yaşayırlar. Respublikada 35 qeyri-müsəlman dini icmasının dövlət qeydiyyatına alındığını söyləyən Mübariz Qurbanlı yəhudiliyin Azərbaycanda qədim tarixə malik olduğunu vurğulayıb. Ölkəmizdə Dağ, Avropa və Gürcü yəhudi icmalarının, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edən sədr Azərbaycanda müsəlman dini icmalarla yanaşı, qeyri-müsəlman dini icmalara dövlət tərəfindən maddi yardımın ayrılmasının ənənə halını aldığını diqqətə çatdırıb. O, Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əldə edilən nailiyyətlərin, ictimai-siyasi həyatdakı sabitliyin dini sahədə də özünü göstərdiyini deyib.

Görüş zamanı nümayəndə heyətinin üzvlərinə Azərbaycan həqiqətləri barədə də danışan DQİDK sədri bildirib ki, 20 faiz torpaqlarımız ermənilər tərəfindən işğal olunub. Münaqişə nəticəsində işğal olunmuş torpaqlarımızda dini-tarixi abidələrin məhv edildiyini vurğulayan M.Qurbanlı bütün bunlara baxmayaraq, Bakıda erməni kilsəsinin qorunub saxlanıldığını deyib. Əlavə edib ki, təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir.

Amerika Yəhudi Komitəsində Rusiya və Avrasiya işləri üzrə direktor Samuel Kliger Azərbaycanın yəhudilərin azad şəkildə öz dini inanclarını icra etdiyi ölkələr içərisində ön sıralarda olduğunu qeyd edib.

Azərbaycanda yəhudi dini icmalarına, o cümlədən yəhudi irsinin qorunmasına göstərilən diqqət və qayğıya görə məmnunluğunu ifadə edən ABŞ və Kanada Buxara Yəhudiləri Konqresinin koordinatoru Rafael Nektarov təmsil etdiyi qurum barədə məlumat verib. Təşkilatın fəaliyyətində daim Azərbaycanın mövqeyini dəstəklədiyini və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi üçün bütün mümkün səyləri, əməkdaşlığı həyata keçirməyə niyyətli olduqlarını deyib.

Qonaqların çıxışlarında Azərbaycanın iqtisadi sahədə ciddi uğurlar qazanması, Bakı şəhərinin abadlığı və gözəlliyi, Azərbaycan xalqının qonaqpərvərliyi xüsusi olaraq vurğulanıb.

Qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərin də müzakirə olunduğu görüşün sonunda nümayəndə heyətinin üzvlərinə komitənin ingilis dilində nəşr etdirdiyi, Azərbaycandakı dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

# Zərbəni belə vurarlar

“Dövlət başçısının “Qarabağ Azərbaycandır və nida işarəsi” bəyanatı torpaqlarımıza xaincəsinə soxulan ermənilərə ən tutarlı cavabdır. Ermənilər bundan sonra nə baş verəcəyini mütləq anlamalı və işğal etdikləri Azərbaycan ərazilərini tərk etməlidirlər”.

Bu fikirlər Azərbaycan Dövlət Aqrar Universitetində keçirilən “dəyirmi masa”da səsləndirilib. Təhsil müəssisəsinin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov Prezident İlham Əliyevin Rusiyanın Soçi şəhərində keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar iclasındakı iştirakından, iclasdan əvvəl Rusiya Prezidenti Vladimir Putinlə keçirdiyi ikitərəfli görüşdən danışmışdır. O, diqqətə çatdırmışdır ki, Ermənistanın baş naziri Nikol Paşinyan bir ölkə rəhbəri kimi rəsmi Rusiya tərəfindən də qəbul edilmir. Bu, İrəvanda keçirilən sammitdə də özünü bir daha nümayiş etdirmişdir.

Universitetin İctimai elmlər və multikulturalizm kafedrasının müdiri, ADAU-nun professoru Azad Bayramov, AMEA-nın Gəncə bölməsinin rəhbəri, akademik Fuad Əliyev qeyd etmişlər ki, Prezident İlham Əliyevin dəvət olunduğu “Valday” Beynəlxalq Diskussiya Klubu dünyada mövcud olan qlobal siyasi-iqtisadi problemlərin müzakirə olunduğu geniş platformadır. Bu tədbirdə dünya siyasətində rolu və yeri olan dövlət başçıları, nüfuzlu siyasətçilər, beyin mərkəzlərinin alimləri iştirak edirlər. “Valday” klubunun plenar iclasında dövlət başçısının möhtəşəm çıxışı, tarixi bəyanatı yaddaşlara yazıldı.

“Dəyirmi masa”da iştirak edən universitetin digər müəllim və professorları, tələbələr bu tarixi bəyanatın mahiyyətindən danışmış, Azərbaycan liderinin bu nitqinin Paşinyanın sərsəm fikirlərinə ən tutarlı cavab olduğunu söyləmişlər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Lənkəranın termal və mineral suları Azərbaycanın mühüm sərvətlərindəndir

## Onlardan səmərəli istifadə olunması vacib bir məsələ kimi gündəmə gətirilməlidir

Dövlət Turizm Agentliyinin məlumatına görə, 2019-cu ilin yanvar-sentyabr aylarında Azərbaycana gələn xarici turistlərin sayı keçən ilin eyni dövrü ilə müqayisədə 9,6 faiz artaraq 2,4 milyona çatıb. Sentyabr ayında olduğu kimi, ilin əvvəlindən gələnlərin əksəriyyətini (1,26 milyon nəfər və ya 52 faiz) Rusiya və Gürcüstan vətəndaşları təşkil edir. Gürcüstan üzrə artım 94,5 min nəfər (21,7 faiz) olmuşdur. Ən yüksək artım İran və Mərkəzi Asiya ölkələrindən gələn turistlərin sayında müşahidə olunub. İran üzrə 2 dəfə, Mərkəzi Asiya ölkələri üzrə isə 88 faiz artım qeydə alınıb.





Ölkəyə gələn əcnəbilərin 6,7 min nəfəri və ya 13 faizdən çoxu Gürcüstanın, 5,3 min nəfəri və ya 8 faizdən çoxu Rusiyanın payına düşür. Mərkəzi Asiya ölkələrindən gələn turistlər arasında Türkmənistandan gələnlərin sayı ötən illə müqayisədə 231 nəfər (8 faiz) artıb. Cənubi Asiya ölkələri arasında Hindistandan gələn 3 min (83,7 faiz), Yaxın Şərq ölkələri arasında Səudiyyə Ərəbistanından gələn 3,8 min (96,1 faiz) turistin sayında da kəskin artım müşahidə olunur. Bu turistlər Azərbaycanın digər bölgələri ilə yanaşı, ölkəmizin dilbər guşələrindən biri olan Lənkərana da səyahət edirlər.

Lənkəran rayonunun sahəsi 1540 kvadratkilometrdir, bunun da 700 kvadratkilometr hissəsində 36 mineral su mənbəyi yerləşir. Bakıdan bu rayonun mərkəzinədək olan məsafə 268 kilometrdir. Lənkəran rayonu Azərbaycanın cənub-şərqində, Xəzər dənizinin qızıl qumlu sahilində, zümrüd rəngli Talış dağlarının ətəyində yerləşir. Rayonun relyefində əsas yeri Lənkəran ovalığı və Talış dağları tutur. Hündürlüyü 2493 metr təşkil edən Kömürgöy zirvəsi Talış dağlarının dəniz səviyyəsindən ən yüksəkdə olan hissəsidir.

Rayonun iqlimi Azərbaycanda ən rütubətli iqlimdir, burada yağıntıların miqdarı ildə 1402 millimetr təşkil edir. İqlimin rütubətli subtropik olması rayonun quru, isti yayı, mülayim qışı ilə xarakterizə edilir. Lənkəranda orta illik temperatur müsbət 11-14$^{0}$ C-yə, yanvar ayında mənfi 1-4$^{\circ}$ C-yə çatır. İyulda orta temperatur müsbət 22-26$^{\circ}$ C olur. Rayonda yay aylarında cənub-qərb, qış aylarında qərb və şimal küləkləri üstünlük təşkil edir.

İqlimin subtropikliyi, quraq isti yayı, sərin qışı, ərazisinin 25 faizini tutan qiymətli ağac növləri, Xəzər dənizinin mülayim suları və çimərlikləri, tarixən əhalinin müalicəsi üçün istifadə edilən termal və mineral suları Lənkəran ərazisini hələ qədimdən məşhurlaşdırmışdır. Rayonun ərazisində il boyu mövcud olan yaşıllıqlar, müxtəlif istiqamətli (xüsusiyyətli) qoruqlar, tarixi, mədəni, dini və təbiət abidələri, Azərbaycanın ən mühüm kurort-rekreasiya resurslarının inkişafı bu bölgənin ölkənin ən böyük turizm rayonuna çevrilməsinə zəmin yaratmışdır.

Lənkəran rayonunda termal və mineral sular Azərbaycanın digər bölgələrinə nisbətən daha çoxdur. Onlar tarixən müxtəlif alimlər tərəfindən, o cümlədən geoloqlar, hidrogeoloqlar, tibb mütəxəssisləri, kimyaçılar, hətta bir nəfər azərbaycanlı coğrafiyaçı tərəfindən ətraflı tədqiq olunmuşdur. Lənkəranın termal və mineral suları Çar Rusiyası dövründə ətraflı öyrənilmişdir. Bunun əsas səbəbi Çar Rusiyası dövründə Azərbaycan ərazisində xidmət edən rus əsgərlərinin istirahəti və müalicəsi üçün onlardan xüsusi istifadə edilməsi olmuşdur. Digər tərəfdən, bu ərazilərin füsunkar təbiəti, onun Xəzər dənizinin ətrafında yerləşməsi, İran və digər Yaxın Şərq ölkələrinə yaxınlığı, həm də çoxsaylı termal və mineral suları buraya diqqəti daim artırmışdır.

Çar Rusiyası dövründə Lənkəranın termal sularının öyrənilməsinə böyük maraq göstərilsə də, sovet hakimiyyəti illərində bu sahənin öyrənilməsinə yalnız keçən əsrin 50-ci illərinədək diqqət ayrılmış, o qədər də praktik əhəmiyyət kəsb etməyən kiçikhəcmli məqalələr nəşr olunmuşdur.

"Azərbaycan" qəzetinin oxucularının diqqətini azərbaycanlı coğrafiyaçı mütəxəssis Məmmədəli bəy Şəfiyevin Lənkəranın termal və mineral suları haqda yazdıqlarına cəlb etmək istəyirik. Onun bu sahəyə aid dərc etdirdiyi çoxsaylı məqalələr xüsusi maraq doğurur və qürur hissi keçirməyimizə səbəb olur. Onun xüsusi olaraq 1854-cü ildə Rusiya Coğrafiya Cəmiyyətinin xəbərlərində (Xİ 2otd V) çap etdirdiyi "Lenkoranskiye mineralnıye istoçniki" məqaləsini və sonrakı illərdə "Kavkaz" qəzetinin 76-cı və digər nömrələrində dərc olunmuş maraqlı məqalələri bu gün də öz əhəmiyyətini saxlayır. Məmmədəli bəy Şəfiyevin yazdığı məqalələr Lənkəranın ərazisi, onun burada yaşadığı dövrdə bulaqların sayı, hərarəti (+33 +37$^{0}$ C), mineral suların hansı xəstəliklər üçün müalicəvi əhəmiyyət daşıması, onlardan necə istifadə edilməsi qaydaları, kimyəvi tərkibi, mineral su mənbələrinə gedən yolların vəziyyəti və s. haqda çox müfəssəl məlumat verir. Məmmədəli bəy Şəfiyevin məqalələrində rayonun ərazisində olan termal və mineral suların Lənkərandan hansı məsafədə yerləşməsi, mövsüm ərzində müalicə olunanların sayı və s. haqqında da məlumatlar öz əksini tapıb.

Termal sulardan əlavə, rayonun ərazisində iki soyuq mineral su mənbəyi də mövcuddur. Onlardan biri Alaşa kəndindən 3 verst (3,15 km), digəri isə Lənkərandan 18 verst (18,9 km) məsafədə yerləşir. Digər duzlu, acı tərkibli mineral su Siyaku kəndində, Lənkərandan 18 verst (18,9 km), Qotur su isə Lənkərandan 15 verst (15,75 km) məsafədədir. Mövsüm ərzində burada təxminən 250 nəfər şəraitsiz vəziyyətdə pulsuz müalicə alırmış. 14 vanna otağından 5-i xəstələrə xidmət göstərirmiş. Mövsümdə burada 300 nəfər revmatizm və dəri xəstəliklərindən müalicə olunurmuş. Vannadan istifadənin bir günlük haqqı ovaxtkı pulla 10 qəpik, bir nömrə üçün istifadə isə 75 qəpiyə bərabər imiş.

Məmmədəli bəy Şəfiyevin Lənkəranın termal və mineral suları haqda verdiyi məlumatları belə ətraflı xarakterizə etməyimizin səbəbi ötən 160 il ərzində müalicə məqsədilə istifadə olunan həmin suların tərkibində nə kimi dəyişikliklərin baş verməsindən bəhs etməkdir.

Çar Rusiyası dövründən fərqli olaraq, sovet dövründə Lənkəranın termal və mineral suları ümumi şəkildə öyrənilməkdə davam etmişdir. Aparılan tədqiqatlar mətbuat orqanlarından biri olan "Ekonomiçeskiy Vestnik" aylıq jurnalının nömrələrində ara-sıra çap edilərək öz əksini tapmışdır. Jurnalın 29 fevral 1924-cü il sayında Bakıda çap olunmuş "Mineralnıye istoçniki kurortov Azerbaydjana" (səh.15-19) məqaləsində Azərbaycanın bütün 10 uyezdi üzrə göstərilən mövzu ətraflı xarakterizə edilmişdir.

1857-ci ildə və sonrakı 30 il ərzində əsasən " Kafkaz" qəzetində Lənkəranın mineral suları haqqında çoxsaylı məqalələr dərc olunmuşdur. Həkim D.M.Ilyinin araşdırmalarının nəticələri 1875-ci ildə geniş təsvir edilmişdir. 1892-ci ildə A.Konsin Lənkəran suları haqqında qısa təsviri məlumatlar vermişdir. Daha sonra 1916-cı ildən başlayaraq Lənkəran mineral suları haqqında V.M.Vodoyavlenskinin, Q.F.Çurkinin, A.Marinin, A.Ələsgərovun və başqalarının apardıqları tədqiqatları göstərmək olar.

Göstərilən sahənin sovet hakimiyyəti illərində inkişafı, onlardan səmərəli istifadə yolları heç də Azərbaycan Respublikasının səlahiyyətləri dairəsində olmamışdır. Sübut üçün deyək ki, bu məqalənin müəlliflərindən biri - Neron Babaxanov keçən əsrin 60-cı illərində, Azərbaycan Dövlət Universitetinin tələbəsi olduğu zaman ABŞ-ın Xəzər dənizi sahillərinin turizm məqsədilə uzunmüddətli icarəyə verilməsinə dair yaradılmış tədqiqat qrupuna daxil edilmişdi. Göstərilən layihə axtarışlarının Azərbaycan Respublikası və ABŞ mütəxəssisləri tərəfindən müsbət mənada yekunlaşdığı bir ərəfədə SSRİ dövlətinin rəhbərliyi onun həyata keçirilməsinin məqsədəuyğun olmadığı haqda Azərbaycan rəhbərliyini xəbərdar etmişdi. Əgər göstərilən layihə o vaxt baş tutsaydı, Azərbaycanın Xəzər sahillərində ABŞ hökuməti hesabına tikiləcək bütün qurğu və tikililər müəyyən vaxtdan sonra, layihədə göstərildiyi kimi, təmənnasız ölkəmizə veriləcəkdi. Layihədə əsas diqqət Lənkəran-Astara rayonlarının Xəzər dənizi sahili boyu ərazilərinə yönəldilmişdi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Bunu nəzərə alaraq, məqsədimiz yaxın gələcəkdə göstərilən sahənin səmərəli istifadə edilməsi, Azərbaycan üçün nə kimi əhəmiyyəti olacağı barədə oxuculara məlumat verməkdir.

Sovet hakimiyyəti illərində Lənkəran rayonunun termal və mineral sularının elmi cəhətdən öyrənilməsində xüsusi xidmətləri olanlardan M.A.Qaşqayın fundamental əsərini ("Mineralnıye istoçniki Azerbaydjana", Baku,1952, 503 s.) və Ə.Q.Əsgərovun yazdığı ("Mineralnıye istoçniki Azerbaydjanskoy SSR", Baku,1954, 334 s.) monoqrafiyalarını göstərə bilərik. Tam məsuliyyətlə deyə bilərik ki, göstərilən alimlərin monoqrafiyaları çap olunduğu vaxtdan 70 ilə yaxın vaxt keçsə də, sonrakı illərdə bu elmi istiqamətdə Azərbaycanın termal-mineral suları haqqında belə qiymətli əsərlər nəşr olunmamışdır. Ə.Q.Əsgərovun qeyd edilən monoqrafiyasında daha çox "coğrafilik" müşahidə edildiyindən bu məqalədə əsas diqqət, müəllifin yazdığı kimi, Lənkəran rayonu ərazisində olan 36 termal və mineral bulağın öyrənilməsinə həsr olunmuşdur. Bunlardan ən əhəmiyyətlilərinə 11 çıxışı olan İbadi su, 13 çıxışı olan Meşə su, 3 çıxışı olan Qavzaur, 2 çıxışı olan Xafiyogen termal sularını göstərmək olar.

Müəllif İbadi suyun Lənkərandan 14,5 kilometr şimal-qərbdə yerləşdiyini qeyd edərək, onun mövcud 11 çıxışının hər birini ətraflı xarakterizə etmişdir. İbadi suyun kimyəvi tərkibi, qoxusu, hərarəti, debiti və s. göstəriciləri haqda monoqrafiyada ətraflı məlumat verilib. Monoqrafiyada 11 çıxışı olan bu suyun debitinin bir milyon yüz əlli min litr/gün olduğu göstərilir.

Müəllif həmçinin Meşə su termal suyunu xarakterizə edərək onun Lənkərandan 12 kilometr şimal-qərbdə Qamaru çayı yatağında, dəniz səviyyəsindən 55 metr yüksəklikdə yerləşdiyini, bir-birindən 80 metr aralıda 13 çıxışının mövcud olduğunu qeyd etmişdir. Meşə su termal suyunun 13 çıxışı ilə birgə debiti 1 milyon litr/gün təşkil edir. Ə.Q.Əsgərovun yazdığına görə, 70 il öncə Azərbaycanın ayrı-ayrı bölgələrindən kurort mövsümü ərzində bura müalicə və istirahət üçün gələnlərin sayı 4-5 min nəfər olmuşdur.

Qavzaur termal suyu Lənkərandan 14 kilometr şimal-qərbdə Qavzaur çayının sağ sahilində yerləşir. Suyun hərarəti 42$^{0}$ C olub, debiti 129 600 litr/gün təşkil edir. Mövsüm ərzində burada 2500 xəstə şəfa tapır. Göstərilən termal suyun digər iki çıxışı da müəllif tərəfindən monoqrafiyada ətraflı xarakterizə edilmişdi.

M.A.Qaşqay isə yazdığı monoqrafiyada Lənkərandan 14 kilometr qərbdə, 702 kvadratmetr ərazidə yerləşən əsas termal suları ümumi şəkildə xarakterizə edir. Bu termal sulardan XVIII əsrin əvvəllərindən başlayaraq yerli əhalinin müalicəvi məqsədlər üçün istifadə etməsi və onun nəticələri ətraflı göstərilir.

M.A.Qaşqayın qeyd etdiyi kimi, göstərən sulardan istifadə edən xəstələrin səhhəti 3-4 gün ərzində kəskinləşsə də, daha sonra onların yaxşılaşması və sağalması müşahidə edilib. Başağrısı, başgicəllənməsi, dəridə olan qaşınmalar, xroniki revmatizm, əzələlərin revmatik pozulmaları, əsəb xəstəlikləri, onurğa ağrıları və digər xəstəlikləri olan insanların sağalması göstərilir.

M.A.Qaşqayın yazdığına görə, Aşağı Lənkəran mineral suları 780 kvadratmetr sahəsi olan ərazidə yerləşib, suyun hərarəti müsbət 41,3-43$^{0}$ C, debiti təxminən 565 000 litr/günə bərabər olub.

Aşağı Lənkəran mineral suları, Lənkərandan 12 kilometr məsafədə Həyat-Xana yaşayış məntəqəsindən şimalda, dəniz səviyyəsindən 30-40 metr yüksəklikdə yerləşib, ümumi debitinin üç yüz min litr/gün olduğu qeyd edilir.

Məqalə müəllifləri bir çox Avropa ölkələrində termal sulardan necə istifadə edilməsinin şahidi olmuşlar. Misal üçün, Macarıstanda əhalisi 8-9 min nəfər olan kiçik yaşayış məntəqələrində olan termal su ərazilərində 150-dən çox mehmanxana, hotel, kempinq və s. fəaliyyət göstərir. Hər il bura müalicə olunmaq üçün 100 minlərlə turist gəlir. Göstərilən qəsəbədə termal sulardan istifadə işsizlik və s. sosial problemlərin həllinə də öz müsbət təsirini göstərir.

Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün termal sular da geniş imkanlar açır. Təəssüf ki, Azərbaycanda onların sayı bugünə qədər dəqiq müəyyən edilməmişdir.

Ölkəmizdə, o cümlədən Lənkəranda turizmin inkişaf etdirilməsi üçün hər cür imkanlar var. Bu imkanlardan ən əsası termal və mineral sulardır. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə, o cümlədən Lənkəranda çoxsaylı hotellər, kempinqlər tikilib istifadəyə verilmişdir. Bu da həmin sulardan daha çox insanın istifadə etməsinə imkan yaradır.

Bu gün üçün həmin obyektlərin sayı Lənkəranda cəmi 26-dır. O cümlədən on yeddisi hotel, ikisi istirahət mərkəzi, ikisi müalicə məqsədilə sanatoriya, üçü hoster (ev tipli), biri motel və biri qonaq evi olaraq Azərbaycandan və xarici ölkələrdən gələn turistlərin istifadəsinə verilir. Qeyd edək ki, 2006-cı ildə Lənkəranda cəmi altı turist obyekti fəaliyyət göstərirdi. Lənkərana gələn turistlərin sayı sürətlə artaraq 2016-ci ildə 16120 nəfər (7 faizi xarici), 2017-ci ildə 21843 nəfər (14 faizi xarici), 2018-ci ildə 27546 nəfər (16 faizi xarici), 2019-cu ilin 9 ayında isə 25 926 nəfər (14 faizi xarici) olmuşdur. Burada müalicə alanların sayı isə müvafiq olaraq 2016-cı ildə 94 nəfər, 2017-ci ildə 128 nəfər, 2018-ci ildə 139 nəfər olmuş, 2019-cu ildə isə hələlik 309 nəfərə çatmışdır. Bu da Lənkəran üçün o qədər də yüksək göstərici deyil.

2019-cu ildə Lənkəranda istifadəyə verilmiş 9 mərtəbəli, dünya standartlarına cavab verən "Lenkoran sprinq" istirahət-müalicə kompleksində 300 nəfər daimi işlə təmin olunmuşdur. Kompleksdə 13 nəfər həkim çalışır. Onlar bura tək istirahət üçün deyil, eləcə də müalicə olunmaq üçün gələnlərə yüksək səviyyədə pulsuz xidmət göstərirlər.

Bəzi məlumatları dəqiqləşdirmək üçün Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova telefonla müraciət etdik. Onun göstərişi əsasında bu sahəyə baxan rəhbər işçi bizimlə təcili əlaqə saxlayıb lazımi məlumatları söylədi.

Dünyada turizmin inkişaf etdiyi ölkələrə gələn gəlirlərin 30-40 faizi əsasən ekskursiyalar hesabına əldə edilir. Azərbaycanda isə ekskursiyaların nə qədər gəlir gətirdiyini dəqiq deyə bilməsək də, onun təxminən bir faiz təşkil etdiyi məlumdur. Buna əsas səbəb göstərilən sahəyə dair təbliğatın müntəzəm aparılmaması, digər tərəfdən isə turist obyektlərinin yerləşdiyi ərazilərdə onların maraq göstərdiyi obyektlərin olmamasıdır. Bəs Azərbaycanın tarixən ən çox turizmin inkişaf etdiyi bölgələrindən biri olan Lənkəranda necə? Fikrimizcə, Lənkəran və onun ətrafında ekskursiyalar üçün o qədər gəzməli, görməli yerlər var ki, onların da bir qismi məqalənin əvvəlində qeyd edildi. Bölgənin xarici ölkələrə yaxınlığı, Xəzər dənizi ilə əhatələnməsi və s. burada saysız-hesabsız ekskursiyalar təşkil etməyə imkan verir. Ancaq bunun üçün Lənkəranın turizm obyektlərində çalışanların, müvafiq nazirliklərin və s. qurumların ekskursiyalara münasibətinin kəskin surətdə dəyişilməsi lazımdır.

Bunun üçün adıçəkilən sahəyə xidmət göstərən ixtisaslı, bölgəni çox yaxşı bilən kadrların olması vacibdir. Lənkəranın turist obyektlərində apardığımız sorğular nəticəsində bəlli oldu ki, göstərilən sahənin inkişaf etməməsinin əsas səbəbi yerlərdə mövcud obyektlərin özəlləşdirilməsi, onlardan şəxsi rifah halının yaxşılaşdırılması üçün istifadə edilməsidir.

Azərbaycanda mövcud olan termal və mineral bulaqlar özəlləşdirilərkən bəzi hallarda qanun pozuntularına yol verilir. Belə ki, sovet hakimiyyəti illərində beynəlxalq turist marşrutlarına daxil edilmiş müalicə mərkəzləri indi yerli iş adamları tərəfindən özəlləşdirilir. Sonradan mərkəzin maddi-texniki avadanlıqları, bir sözlə, nəyi varsa satılır və həmin şəxs "bura mənimdir" deyərək obyektin fəaliyyətini dayandırır.

İnsanların sağlamlığını və istirahətini təmin edən termal sular istifadə edilmədən Xəzər dənizinə axıdılır. Bu kimi hallara Xaçmaz, Kürdəmir və digər rayonlarda olduğu kimi, Lənkəranda da rast gəlinir. Buna qətiyyən yol verməmək olmaz.

Lənkəranın termal sularından səmərəli istifadə edilməməsinin əsas səbəblərindən biri beynəlxalq aləmə çıxışının olmamasıdır. İnsanlar evində kompütərə baxaraq dünyanın ən məşhur termal sularından istifadə edilməsi, mövcud kurortlar, istirahət yerləri haqqında istədikləri məlumatı ala bilirlər. İl ərzində göstərilən şəfa mərkəzinə əvvəlcədən nə vaxt gəlmək haqqında sifariş etmək imkanı qazanırlar. Xarici ölkələrdə belə müalicə mərkəzləri barədə reklam işlərinin aparılmasının səbəbi nədir? Niyə biz sözügedən sahədə bu və digər məsələlərə aid suallara cavab tapmaqda çətinlik çəkirik?

Məqalə müəllifləri termal və mineral sulara dair çoxsaylı elmi-publisistik yazılarında bütün bu suların yerləşdiyi ərazilərə dair xəritələrin nəşr edilməsinə önəm vermirlər. Halbuki xarici ölkələrdə bütün müalicə və istirahət mərkəzlərinin xəritə sxemlərinin geniş tirajla çap edilməsi xüsusi əhəmiyyət daşıyır. Belə xəritə sxemlərdə turist məkanının özü və ətraf ərazilər haqqında geniş məlumat verilir.

Təəssüfləndirici haldır ki, respublikamızın Lənkəran kimi turist zonasının şəfa mərkəzləri haqqında nədənsə bugünədək özündə ətraflı məlumatları birləşdirən bukletlər çap olunmamışdır. Belə bukletlər buraxılmalı və istirahətə gələn hər bir vətəndaşa təqdim edilməlidir.

Məqalənin nəşrə hazırlanması ərəfəsində Avropadan Bakıya qonaq gəlmiş dostumuz, ixtisasca həkim olan professor söylədiklərimizə istinadən bildirdi ki, siz dünyanın ən zəngin insanlarısınız: "Çünki belə zəngin resurslarınız var. Dünyada hazırda özünüzün neftiniz və təbii qazınızla məşhursunuz. Ancaq bir neçə ildən sonra özünüzün tükənməz sərvəti olan termal və mineral sulardan səmərəli istifadə etməklə də şöhrət qazana bilərsiniz".

Qonaq bizimlə birlikdə milyonlarla insana səfa verə biləcək Lənkəranın termal sularının çox qisminin istifadə edilmədən Xəzərə axıdılması əleyhinə olduğunu bildirdi.

Lənkəran rayonunda turistlər və istirahət edənlər üçün ekskursiyalar təşkil etməklə də rayon büdcəsinə çox böyük gəlir gətirmək olar. Xəzərin sahilində yerləşən Talış dağlarının çox qiymətli ağac növləri ilə zəngin meşələrinə, sürətlə inkişaf etməkdə olan çayçılıq və çay emalı müəssisələrinə, subtropik meyvə bağlarına, tarixi, dini abidələrinə, Xəzər dənizinin rayonun cənubunda yerləşən çimərliklərinə gəzintilər turistləri valeh edər. Bakı şəhərinə, İran və Yaxın Şərq ölkələrinə, Rusiyaya, Qazaxıstana, Türkmənistana Xəzər dənizi vasitəsilə turlar təşkil etməklə Lənkəranı yaxın illərdə Azərbaycanın əsas istirahət və müalicə mərkəzindən birinə çevirmək mümkündür.

Sonda onu da qeyd etmək istərdik ki, Lənkəranda mövcud mineral suların debiti bir sutka ərzində 20 milyon litrə bərabərdir. Azərbaycanın heç bir bölgəsində bu qədər debiti olan termal və mineral sular yoxdur. Odur ki, həmin termal və mineral su resurslarından tam və səmərəli istifadə edilməsi vacib bir məsələ kimi gündəmə gətirilməlidir.

**_Neron BABAXANOV,_**
**_İsmayıl ƏLİYEV,_**
**_Bakı Dövlət Universitetinin professorları_**

# İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş "dəyirmi masa" keçirilib

Klassik Azərbaycan poeziyasında öz dəstxəti ilə seçilən, dünya poeziyasına əvəzsiz incilər bəxş edən söz ustadlarımızdan biri də İmadəddin Nəsimidir. Onun yaradıcılığında insanın əzəməti, şəxsiyyətin azadlığı və məhəbbət ideyası mühüm yer tutur. Nəsiminin müxtəlif ideyalarla zəngin bədii irsi özündən sonra gələn Azərbaycan şairlərinin yaradıcılığına, eləcə də bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına güclü təsir göstərmişdir.



Bu sözlər Qazaxda "Milli dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda keçirilən "dəyirmi masa"da səsləndirilmişdir. Qeyd olunmuşdur ki, Nəsimi Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmaqla bədii söz sənətinin qiymətli incilərini meydana gətirmişdir. Onun yaratdığı əsərlər dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilib.

Qazax Rayon İcra Hakimiyyətinin, Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə keçirilən "dəyirmi masa"da rayon ictimaiyyəti, ziyalılar, təhsil və mədəniyyət işçiləri, AMEA-nın əməkdaşları, həmçinin Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının üzvləri də iştirak etmişlər.

Tədbiri rayon icra hakimiyyətinin məsul işçisi Məhəmməd Orucov açaraq Azərbaycan Prezidenti İlham Əliyevin milli-mənəvi dəyərlərimizə, xüsusən də ziyalılarımıza, söz adamlarına verdiyi yüksək dəyərdən danışmış, görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyinin təntənəli surətdə qeyd edilməsini və 2019-cu ilin "Nəsimi ili" elan olunmasını bu dəyərlərin məntiqi nəticəsi kimi qiymətləndirmişdir. Birinci vitse-prezident Mehriban Əliyevanın İmadəddin Nəsiminin yubileyi ilə əlaqədar 650 min ağacın əkilməsi ideyasını isə dahi şairin xatirəsinə yüksək ehtiram kimi dəyərləndirmişdir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Rəfi Qurbanov çıxışında İmadəddin Nəsiminin Azərbaycan xalqının ümumbəşəri mədəniyyətə bəxş etdiyi qüdrətli söz ustalarından biri olduğunu bildirib. Qeyd edib ki, Nəsimi Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri Barat Vüsal böyük filosof şair İmadəddin Nəsiminin dərin, sarsılmaz inam və işıqlı ideya sahibi olmasından, sözün əsl mənasında öz həqiqətini yalnız poeziyasının qüdrəti ilə deyil, şəxsi fədakarlığı ilə əfsanəyə çevirməsindən danışıb.

AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Mübariz Ağalarlı isə qeyd edib ki, Nəsimi insanların qəlbini, onların iç dünyasını ilahi ustalıqla tərənnüm etməklə yanaşı, özümüzə qayıdışın, milli kimliyimizin də fəlsəfi düşüncələrini öz əsərlərində tərənnüm etmişdir.

**_Sabir ƏLİYEV,_**
**_"Azərbaycan"_**

# Beyləqanda genişmiqyaslı ağacəkmə kampaniyasına ciddi hazırlıq işləri görülür

Mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü respublikamızın hər yerində olduğu kimi, Beyləqan rayonunda da böyük rəğbətlə qarşılanıb.



Hazırda rayonda noyabrda keçiriləcək genişmiqyaslı ağacəkmə kampaniyasına ciddi hazırlıq işləri görülür. Kampaniya çərçivəsində rayon ərazisində bir gündə 10 min ağac tinginin əkilməsi nəzərdə tutulur.

Hazırlıq işlərinin gedişi barədə məlumat verən Beyləqan Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Yeganə Məmmədova AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində deyib: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu təşəbbüsü görkəmli şairin irsinin daha geniş təbliği ilə yanaşı, həm də ekoloji mühitin daha da sağlamlaşdırılması baxımından böyük əhəmiyyətə malikdir. Beyləqan sakinləri yaşıllıqların artmasına töhfə verəcək bu nəcib təşəbbüsə həvəslə qoşulublar. Rayonda ağac əkiləcək ərazilər müəyyənləşdirilib. Ağacların Beyləqan-Kəbirli, Beyləqan-Daşburun, Görüş ərazisi-Şəfəq qəsəbəsi avtomobil yollarının kənarlarında və Beyləqan şəhərində "Nəsimi ili" ilə bağlı salınan parkın ərazisində əkilməsi nəzərdə tutulub. Ağacların əkiləcəyi ərazilərdə artıq şumlama aparılır, çalalar qazılır, su xətləri çəkilir".

Hazırlıq işləri ilə tanış olmaq üçün ağac əkiləcək Beyləqan-Daşburun avtomobil yolunda olduq. Burada qızğın iş gedir, texnikanın və sakinlərin köməyi ilə sahə hamarlanır, çalalar qazılırdı. Rayonun İkinci Aşıqlı kənd sakini Eldar Kərimov ağacəkmə kampaniyasının Beyləqan rayonu üçün böyük əhəmiyyət daşıdığını deyib: "Beyləqan Kür-Araz ovalığında yerləşir, Azərbaycanın isti, Günəşli diyarıdır. Burada yaşıllıqların artırılması daha vacibdir. Yaşıllıqlar planetimizin ağ ciyəridir. Gələcək nəsil üçün yaşıllıqlar hökmən lazımdır. Mən də bir Beyləqan sakini kimi bu xeyirxah təşəbbüsə çox həvəslə qoşulmuşam. Hazırda ərazini ağac əkininə hazırlayırıq. Noyabrda ağacların əkilməsində də böyük ruh yüksəkliyi ilə iştirak edəcəyik".

# Azərbaycanlı alim Türk Dünyası beynəlxalq fəxri mükafatına layiq görülüb



Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Beynəlxalq Mükafat Komitəsinin qərarı ilə azərbaycanlı alim Teymur Əhmədov "Türk dünyasının fəxri elm və mədəniyyət adamı" beynəlxalq mükafatına layiq görülüb.

AZƏRTAC xəbər verir ki, Turan Elmlər Akademiyasının akademiki, filologiya elmlər doktoru, professor, "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədova mükafatı Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan təmsilçisi professor Elçin İsgəndərzadə təqdim edib.

Türkiyənin "Anadolu" və Azərbaycanın "Respublika" qəzetləri uzun illərdir əməkdaşlıq edir, iki ölkənin ictimai-siyasi, ədəbi-mədəni, iqtisadi həyatına dair səhifə mübadiləsi həyata keçirirlər. "Respublika" qəzetinin Türkiyə təmsilçisi Əflatun Nemətzadənin və qəzetin baş redaktoru Teymur Əhmədovun Türkiyə və Azərbaycanın ictimai həyatı, ədəbi-mədəni əlaqələri haqqında silsilə məqalələri oxucular tərəfindən maraqla qarşılanır.

Professor Teymur Əhmədov Hüseyn Adıgözəl, Cemal Adıgol, Nazilə Abbaslı kimi müəllim, alim və yazıçılarla əməkdaşlıq edir. Onun "Erməni xəyanəti və Andranik Ozanyanın qanlı əməlləri" kitabı 2002-ci ildə "Kuvayı Milliye" nəşrinin (aylıq tarix və mədəniyyət jurnalı) səhifələrində, 2005-ci ildə "Tarixin işığında" (erməni dosyesi) kitabında dərc olunub və oxucuların diqqətini cəlb edib.

İctimai-siyasi xadim və yazıçı Nəriman Nərimanovu Türkiyədə geniş ictimaiyyətə yaxından tanıdan tədqiqatçı alim Hüseyn Adıgözəl "Nəriman Nərimanov", "Nərimanov. Məktublar", "Nərimanov. Seçmə məqalələr", "Atatürk, Nərimanov və Qurtuluş Savaşımız" kitablarını Teymur Əhmədova hədiyyə edib.

# İşıqlı Bakı



Foto Fərman BAĞIROVUNDUR

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## "AZƏRLOTEREYA" Açıq Səhmdar Cəmiyyəti
### *kotirovka sorğusu elan edir*

1) Kompüter və digər avadanlıqların kotirovkalar sorğusu üsulu ilə satın alınması.

Təkliflər 08 noyabr 2019-cu il saat 12.00-dək qəbul edilir.

**Əlaqələndirici şəxs: Zaur Canməmmədov.**
**Telefon: 012 514 47 01/02.**
**Ünvan: Bakı şəhəri, Təbriz küç, 79.**

*Tender komissiyası*

## "AZƏRLOTEREYA" Açıq Səhmdar Cəmiyyəti
### *kotirovka sorğusu elan edir*

1) Anbarda malların saxlanılması üçün nəzərdə tutulan PP plastik qutuların kotirovkalar sorğusu üsulu ilə satın alınması.

Təkliflər 11 noyabr 2019-cu il saat 12.00-dək qəbul edilir.

**Əlaqələndirici şəxs: Rəşad Zamanov.**
**Telefon: 012 514 47 01/02.**
**Ünvan: Bakı şəhəri, Təbriz küç, 79.**

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzi inventarın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar +994125255026 (daxili: 9303) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğularında iştirak etmək üçün sənədlər 6 noyabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı, 86 ünvanında qəbul olunur.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 27.09.2019-cu il tarixdə LOT 1. "Bakı Metropoliteni" QSC-nin "C. Cabbarlı" stansiyasının sağ stansiya tunelində, pilləkən girişlərində alüminium təbəqədən çətirin və karnizin elementlərinin işıqlanma ilə birlikdə quraşdırılması işlərinin satın alınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə **"NİMEX" MMC** qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 25.10.2019-cu il tarixdə ƏDV daxil **962553,85 (doqquz yüz altmış iki min beş yüz əlli üç manat 85 qəpik) manat** məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin 225411. "İnventarın alınması" və 225413. "Digər alışlar və xidmətlər" xərc maddəsi üzrə malların satın alınması məqsədilə 25 sentyabr 2019-cu il tarixdə elektron qaydada keçirilmiş açıq tenderin yekun protokollarına uyğun olaraq 225411. "İnventarın alınması" xərc maddəsi üzrə "Vest-LTD" QSC və 225413. "Digər alışlar və xidmətlər" xərc maddəsi üzrə "Simplex" QSC qalib elan edilmiş və həmin təşkilatlarla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 25.10.2019-cu il tarixdə LOT-1 üzrə Metro vaqonlarının maşinist kabinəsi üçün kondisionerlərin satın alınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə **"PLT Business" MMC** qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 30.10.2019-cu il tarixdə ƏDV daxil 94 022,40 manat (doxsan dörd min iyirmi iki manat 40 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 25 oktyabr 2019-cu il tarixli nömrəsində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun, fondun nəzdində olan sosial xidmət müəssisələri üçün "Dəftərxana və təsərrüfat" mallarının satın alınması məqsədilə dərc edilmiş elanda dəyişiklik edilərək ilkin sənədlərin qəbul müddəti 15.11.2019-cu il saat 15:00-a, tender təklifinin müddəti 26.11.2019-cu il saat 15:00-a və zərflərin açılış vaxtı 26.11.2019-cu il saat 15:00-a təyin edilmişdir.

*Tender komissiyası*


# Beynəlxalq aləm

## Türkiyə ABŞ Nümayəndələr Palatasının "soyqırımı" qətnaməsini rədd etdi




Türkiyə ABŞ Konqresi Nümayəndələr Palatasının 1915-ci ildə Osmanlı dövlətində baş vermiş hadisələrlə bağlı qətnaməsini tamamilə rədd edir. Bu bəyanatla Türkiyə Xarici İşlər Nazirliyi çıxış etmişdir.

Bəyanatda deyilir: "ABŞ-ın erməni soyqırımı ilə bağlı mövqeyinin təsdiqlənməsi haqqında" 296 nömrəli qətnaməni tamamilə rədd edirik. Bu sənəd daxili auditoriyaya hesablanmışdır, onun heç bir tarixi və hüquqi əsası yoxdur". Sənəddə qeyd olunur ki, Suriyada "Sülh bulağı" antiterror əməliyyatının qarşısını almaq cəhdlərinin iflasa uğraması fonunda müəyyən qüvvələr Ankaradan qisas almaq istəyir. Bunun növbəti təzahürü ABŞ Nümayəndələr Palatasının qalmaqallı qətnaməsidir.

Bəyanatda daha sonra deyilir: "Bu qərar Türkiyə hökuməti və xalqı üçün heç bir əhəmiyyət kəsb etmir. Siyasi motivli sənəd ABŞ-dakı erməni lobbisi və anti-Türkiyə dairələrinin maraqlarına xidmət edir. Parlamentlərin tarixi hadisələri istədikləri kimi təhrif etməsi dəhşətli səhvdir... Beynəlxalq hüquqda 1915-ci il hadisələrinin "soyqırımı" kimi tanınması haqqında heç bir qərar yoxdur. Əksinə, Avropa İnsan Hüquqları Məhkəməsi qət etmişdir ki, bu mövzu müzakirələr üçün qanuni əsasdır. Osmanlı dövlətinin son illərində baş vermiş hadisələr siyasətçilərin deyil, tarixçilərin təhlil predmetidir".

Ankara xatırlatmışdır ki, Ermənistan hökuməti 2005-ci ildə Türkiyənin tarixçilərdən ibarət birgə komissiya təşkil etmək təşəbbüsünü dəstəkləməkdən boyun qaçırmışdır.

## Britaniyada növbədənkənar parlament seçkiləri keçiriləcək



Britaniya parlamenti bu il dekabrın 12-də növbədənkənar seçkilərin keçirilməsi haqqında qanun qəbul etmişdir. Bu təşəbbüsü 438 deputat dəstəkləmiş, 20 parlamentar qanunun əleyhinə səs vermişdir.

Böyük Britaniyanın Baş Naziri Boris Conson növbədənkənar parlament seçkiləri vasitəsilə Brexitin qəbul edilməsinə nail olmaq istəyir.

Hazırda Consonun liderlik etdiyi Mühafizəkarlar Partiyası parlamentdə çoxluğa malik deyil. Məhz bu səbəbdən indiyədək keçirilmiş səsvermədə Consonun təşəbbüsü lazımi dəstək almamışdı. Baş Nazir yeni seçki qanunu sayəsində, nəhayət, növbədənkənar parlament seçkilərinin keçirilməsi barədə qanunun qəbul edilməsinə nail olmuşdur.

## Livanın Baş Naziri istefa verdi



Livanın Baş Naziri Səəd Həriri ölkədə oktyabrın 17-dən bəri davam edən hökumət əleyhinə aksiyalar fonunda istefaya çıxdığını elan etmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Həriri bildirmişdir ki, istefa ərizəsini Prezident Mişel Övnə çatdıracaq. Onun dediyinə görə, ölkədə təhlükəsizliyin təmin edilməsi və vətəndaşların həyatına təhdidlərin aradan qaldırılması üçün sakinlərin dediklərinə qulaq asmaq lazımdır. "Bütün cəhdlərimə baxmayaraq, vəziyyət dalana dirənmişdir. Livan sakinlərinin iradəsinə uyğun olaraq, istefa ərizəsini Prezidentə təqdim etmək üçün Prezident sarayına yollanıram" deyə Həriri bildirmişdir.

O, hökumətin tərəfdarlarına müraciətində qeyd etmişdir ki, "hazırda ölkənin müdafiəsi və milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsi məsələsi həll olunur. Livanın şərəfi və təhlükəsizliyi hər şeydən üstündür".

## DSX: "Ermənistan silahlı qüvvələrinin bölmələri Qazaxda bir neçə kəndi və döyüş mövqelərimizi atəşə tutub"

Oktyabrın 29-da axşam saatlarından başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin bölmələri Qazax rayonunun bir neçə kəndi və sərhəd döyüş mövqelərimiz istiqamətində atəşkəs rejimini davamlı surətdə pozublar.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bütün hallarda düşmən bölmələrinin atəş nöqtələri cavab atəşi ilə susdurulub.

Məlumatda qeyd edilib ki, atəşkəs rejiminin Azərbaycan tərəfindən pozulması barədə Ermənistan mətbuatının məlumatları həqiqətə tam ziddir. Hərbi qulluqçularımız tərəfindən qarşı tərəfin təxribatına cavab olaraq düşmən mövqelərinə atəş açılıb. Ermənistan silahlı qüvvələrindən fərqli olaraq yaşayış məntəqələri istiqamətində və mülki şəxslərə qarşı silah tətbiq olunmayıb.


## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfiri Hüseyn Quliyevə bacısı

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyev ailəsi ilə birlikdə "Modern inkişaf və ailə" İctimai Birliyinin sədri Zərifə Quliyevaya bacısı

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi İlqar Cəfərova anası

**SUSANNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mehman Nuriyev Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi İlqar Cəfərova anası

**SUSANNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ələkbər Tağıyev Zərifə Quliyevaya bacısı

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8967
Sifariş 3617
Qiyməti 40 qəpik